# DEMOKRATİK VƏTƏNDAŞLIQ ÜÇÜN TƏHSİL (DVT)
# 2001-2004

# Demokratik Vətəndaşlıq üçün Təhsil və İnsan Hüquqları Təhsili üzrə Müəllimlərin Tədris Vəsaiti

**Yazarlar: Rolf Qollob**
**Edvard Hadlston**
**Piter Krapf**
**Mariya-Helena Salema**
**Vedrana Spajic-Vrkaš**

**Edvard Hadlstonun redaktəsi ilə**

# Mündəricat

**Səhifə**

**Fəsil 1: DVT üzrə müəllimlərin tədrisinə olan ehtiyac ........................................................ 5**
1. Ənənəvi vətəndaşlıq modelləri qarşısındakı çətinliklər ........................................................... 5
2. Yeni vətəndaşlıq növü yeni təhsil növü tələb edir .......................................................... 6
3. DVT ümumi Avropa yanaşması kimi ............................................................................. 7
4. Müəllimlərin tədrisi üçün daha effektiv sistemlər olan ehtiyac..............................................8
5. Müəllimlər üçün tədris proqramlarının təmin edilməsinə təsir edən amillər................................. 10

**Fəsil 2: Dəstək strukturları və mexanizmləri ........................................................... 15**
1. Siyasətin hazırlanması ........................................................................................... 15
2. Siyasətin icra edilməsi ........................................................................................ 15
3. Fəaliyyətə başlamazdan əvvəl tədris ..................................................................................... 16
4. Fəaliyyət zamanı tədris ..................................................................................................... 18

**Fəsil 3: Müəllimlərin səriştəliliyi ...................................................................... 21**
1. Tələblər DVT-də nə öyrənməlidirlər? ................................................................... 21
2. DVT-ni dəstəkləyə bilmək üçün müəllimlərə hansı bacarıqlar lazımdır? ................................ 24
3. Öyrətmə metodları ........................................................................................... 25
4. İdarəetmə və insanlarla işləmək bacarıqları ................................................................... 26
5. Düşüncə və inkişaf ........................................................................................27

**Fəsil 4: Proseslər və metodlar ..................................................................... 29**
1. DVT-də müəllim tədrisinin xarakteristikası ..................................................................... 29
2. Tədris prosesi .................................................................................................. 33
3. Öyrənmə mühiti .................................................................................................. 34
4. DVT təlimçisinin rolu ......................................................................................... 35
5. Proseslər və metodlar üzrə hadisə təhlili (kazus) .......................................................................... 36
6. Təlimçilərin təlimi........................................................................................... 39

## FƏSİL 1

## DVT ÜZRƏ MÜƏLLİMLƏRİN TƏDRİSİNƏ OLAN EHTİYAC

Tez dəyişən və müxtəlifliyi artan bir dünyada fəal, məlumatlı və məsuliyyətli vətəndaşlığa olan ehtiyac indiyə qədər olduğundan daha artıqdır. Belə bir vətəndaşlığın yaradılmasında təhsilin rolu demək olar ki, hər bir yerdə qəbul edilmişdir.
İctimai həyatda və işlərdə savadla və cavabdehlik hissi ilə qarışma öyrənməni tələb bir edir. Bu bacarıqların bəziləri ailədə qeyri-rəsmi şəkildə qazanılsa da bugünkü həyatın təbiəti elədir ki, bu ailə təlimi müasir demokratiyaların öz mövcudluğunu saxlamaq üçün tələb etdiyi məlumatlı və effektiv vətəndaşların hazırlanması üçün heç zaman kifayət edə bilməz.
Demokratik vətəndaşlıq üçün tədris (DVT) formal və qeyri-formal təhsilin xüsusiyyəti olmalıdır və bu, demokratik cəmiyyətdə bütün vətəndaşların hüququdur.
Bu fəsildə biz məktəblərdə müəllimlərin həm fəaliyyətə başlamazdan əvvəl, həm də fəaliyyət zamanı yüksək keyfiyyətli DVT tədris etmələri üçün lazım olan **peşəkar tədris proqramları** növlərinə və bu proqramların tərtib edilməsi üsuluna təsir göstərən amillərə baxacağıq.

### 1. Ənənəvi vətəndaşlıq modelləri qarşısındakı çətinliklər

DVT barədə ideya yeni deyil. Müxtəlif Avropa ölkələrində bir çox illər ərzində mülki və ya vətəndaşlıq təhsilinin elementi olmuşdur. Bu, əsasən öyrənənləri siyasi sistem barəsində məlumatlandırmaqdan, məsələn, formal təlimat metodlarından istifadə etməklə qüvvədə olan konstitusiya barədə məlumatlandırmaqdan ibarət idi. Buna görə də vətəndaşlığın fundamental modeli **passiv və minimal** idi. Adi adamların əksəriyyəti tərəfindən vətəndaşlıq sadəcə onların qanuna tabe olmaları və ictimai seçkilərdə səs vermək tələbi kimi başa düşülürdü.

Bununla belə son zamanlarda Avropa boyunca baş verən hadisələr və dəyişikliklər vətəndaşlığın bu modelinə mane oldu. Onlara daxildir:

- etnik münaqişələr və milliyyətçilik;
- qlobal təhdidlər və təhlükə;
- yeni informasiya və rabitə texnologiyalarının inkişafı;
- ətraf mühit problemləri;
- xalq hərəkatları;
- əvvəllər basılmış yeni formalı kollektiv mənsubiyyətlərin əmələ gəlməsi;
- artan şəxsi müstəqilliyə və yeni bərabərlik formalarına olan tələbat;
- insanlar arasında sosial bütövlüyün və həmrəyliyin zəifləməsi;
- ənənəvi siyasi qurumlara, idarəçilik formalarına və siyasi liderlərə inamsızlıq;
- qarşılıqlı bağlılığın və qarşılıqlı asılılığın artması – siyasi, iqtisadi və mədəni – regional və beynəlxalq.

Bu kimi problemlərlə üz-üzə qaldıqda aydın olmuşdur ki, artıq yeni növ vətəndaşlara tələbat vardır: yalnız məlumatlı deyil, həm də **fəal olan –** öz icmalarının, ölkələrinin və daha geniş dünyanın həyatına töhfə verə bilən və **buna görə öhdəlik götürən.**

## 2. Yeni vətəndaşlıq növü yeni təhsil növü tələb edir

Təhsilin ənənəvi modelləri müasir demokratiyanın tələb etdiyi fəal, məlumatlı və məsuliyyətli vətəndaşlığı formalaşdırmaq üçün təchiz edilməyibdir. Vacib məqamlarda onlar misal üçün aşağıdakılara davam etməklə sürətlə dəyişən sosial, iqtisadi, siyasi və mədəni mühitin tələblərinə cavab verə bilmirlər:

- ənənəvi siyasətə və siyasi fəaliyyətin maraqlarına qarşı olduğu təqdirdə akademik biliklərin öyrədilməsini vurğulamaqla mübahisəli sosial və siyasi problemlərin öyrənənlərin araşdırmasına və müzakirə etməsinə mane olmaqla;
- yeni informasiya və rabitə texnologiyalarının sürətlə inkişaf etdiyi bir vaxtda fraqmentasiyalı (parçalanmış) fənn biliklərinə və klassik "müəllim-dərslik-tələbə" tədrisinə diqqət yetirməklə;
- vətəndaşların özlərinin demokratik proseslərdə iştirak etmək üçün praktiki bacarıqları öyrənməyə ehtiyacları olduğu bir vaxtda onların təhsilini "ideal" sistemlər barədə faktiki məlumatla məhdudlaşdırmaqla;
- mədəni müxtəlifliyin siyasi və hüquqi tanınmasının demokratik kapitalın bir mənbəyi kimi göründüyü zaman dominant mədəniyyətləri və "ümumi" milli loyallıqları tədris etməklə;
- sosial bütövlüyün və həmrəyliyin azaldığı bir vaxtda təhsili öyrənənlərin şəxsi həyatında və yerli icmanın maraqlarından ayırmaqla;
- təhsilin özünün bütün həyat boyu olan ehtiyaclarını qarşılamağa ehtiyacı olduğu bir vaxtda formal, informal və qeyri-formal təhsil arasındakı ənənəvi bölgüyü möhkəmləndirməklə;
- regional və beynəlxalq səviyyələrdə qarşılıqlı bağlılığın və qarşılıqlı asılılığın artdığı bir vaxtda dövlətin mərkəzdə olduğu təhsil və tədrisi təşviq etməklə.

Tələb olunan isə öyrənənləri cəmiyyətdə **faktiki iştirak** üçün hazırlayan yeni təhsil formalarıdır –nəzəri olduğu qədər də praktiki olan, öyrənənlərə və onların icmalarına təsir edən real həyat məsələlərindən köklənən və həm formal karikulum (təhsil proqramı), həm də məktəb həyatında iştirak etməklə tədris edilən təhsil formaları[1].

Belə tədris etmə formalarının təmin edilməsinə olan ehtiyac müəllimlik peşəsi üçün vacib vəzifələr yaradır. Bu, yeni bilik formalarının öyrənilməsi, yeni öyrətmə metodlarının hazırlanması, həm həmkarlar, həm də öyrənənlərlə yeni iş yollarının tapılması və peşəkar münasibətlərin yaradılması deməkdir. O, tarixi sistemləri başa düşməklə, tənqidi düşüncə və bacarıqların öyrədilməsinə, eləcə də biliklərin ötürülməsinə, təcrid edilmiş hazırlıq əvəzinə peşəkar müstəqilliyə,  mərkəzi diktatdan asılı olmağın əvəzinə əməkdaşlıq və kollaborativ işə əsaslanan tədrisetməni vurğulayır. O, bizim tədrisi necə qavramağımızı dəyişməyi tələb edir, yəni müəllimə diqqət yetirən tədris ideyasından təcrübə, iştirak, araşdırma və bölüşdürməyə əsaslanan tədrisə doğru dəyişmə.

1. Dürr, K., Spajic-Vrkaš, V. & Isabel Ferreira-Martins (2000), *Demokratik vətəndaşlığın öyrənilməsi üçün strategiyalar*. Avropa Şurası, DECS/EDU/CIT 16, səh. 31-32.

## 3. DVT ümumi Avropa yanaşması kimi

Təhsil vasitəsi ilə demokratiyanın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə olan ehtiyaca cavab olaraq Avropa Şurası və Avropa Birliyi bütün Avropada tətbiq ediləcək yeni DVT formalarının hazırlamağa və təşviq etməyə çalışmışlar:

### a) Avropa Şurası

Avropa Şurası 1997-ci ildə DVT üzrə üç tapşırığı olan bir kompleks layihə başlatmışdır: əsas konsepsiyaların dəqiqləşdirilməsi, tədris etmə və öyrənmə strategiyalarının hazırlanması və "vətəndaşlıq məskənləri" adlanan yerlərdə innovativ öyrənmə təcrübələrinin yaradılması və monitorinqi.

Layihə DVT-yə **yeni bir yanaşma** yaratmışdır. O, "aşağıdan yuxarıya" strategiyalarla çoxtərəfli təcrübə ideyasını ehtiva edir, ümumi Avropa dəyərlərinə əsaslanır və formal və qeyri-formal təhsil şəraitləri müxtəlifliyində həyat boyu davam edən öyrənmə vasitəsilə fəal vətəndaşlığa və iştiraka nail olaq məqsədini güdürdü.

Yanaşmaya Avropa Şurasının 1999-cu ildə qəbul etdiyi və DVT-nin "bütün təhsil, tədris, mədəniyyət və gənclərlə bağlı siyasətlərdə və təcrübələrdə əsas komponent" olmalı olduğunu bəyan edən *Vətəndaşların Hüquq və Öhdəliklərinə Əsaslanan Demokratik Vətəndaşlıq üçün Təhsil barədə Bəyannamə və Proqramın* təsiri olmuşdur.[2]

Bir il sonra Avropanın Təhsil Nazirləri *Krakov Qətnaməsini və Demokratik Vətəndaşlıq üçün Təhsillə bağlı Ümumi Təlimatlar Layihəsini* qəbul etdilər. Sənəd əvvəllər ümumilikdə qəbul olunmuş vətəndaşlıq konsepsiyasına yeni ölçülər kompleksi əlavə etməklə demokratik vətəndaşlığı yenidən müəyyən edir və onun necə öyrənilməli və öyrədilməli olduğunu yenidən şərh edir. Xüsusən də demokratik vətəndaşlığın bir neçə ölçüləri olduğu qəbul edilir, yəni **siyasi, hüquqi, sosial və iqtisadi** ölçülər. Belə etməklə o, demokratik vətəndaşlıq məfhumunun yalnız regional və milli səviyyələrə deyil, həm də **Avropa** və **qlobal** səviyyələrə şamil edilməli olduğunu qəbul etmişdir.

DVT-nin prinsipləri və məzmunu daha sonra Demokratik Vətəndaşlıq üçün Tədris barədə Nazirlər Komitəsinin 12 saylı Tövsiyəsi (2002) ilə dəqiqləşdirildi.

Tövsiyə bəyan edir ki, demokratik vətəndaşlıq üçün təhsil siyasətinin və islahatının ürəyi olmalı və *"Avropa Şurasının ən vacib vəzifəsi olan azad, tolerant və ədalətli cəmiyyətin əsasıdır..."*[3]

*O, DVT-yə elə yanaşma müəyyən edir ki, bu:*

• *öz həyatı boyunca fəal və məsuliyyətli olan, başqalarının hüquqlarına hörmət edən bir şəxsi hazırlayan hər hansı bir formal, informal və ya qeyri-formal təhsil fəaliyyətini əhatə edir;*

• *sosial bütövlüyə, qarşılıqlı anlaşmaya, mədəniyyətlərarası və dinlərarası dialoqa və həmrəyliyə - kişilər və qadınlar arasındakı bərabərliyi təşviq etməyə və insanlar arasında sülh münasibətlərini ruhlandırmağa töhfə verməyə çalışır;*

[2] Vətəndaşların Hüquq və Öhdəliklərinə Əsaslanan Demokratik Vətəndaşlıq üçün Təhsil barədə Bəyannamə və Proqram Avropa Şurası, Strasburq, 1999.

• *bütün təhsil sistemlərinin, eləcə də tədris proqramlarının və öyrətmə metodlarının təşkili və idarə edilməsi baxımından innovasiya üçün bir amildir*.

Beləliklə DVT hər hansı tək bir fənnə, məktəb fənninə, öyrətmə və ya tədris metoduna, təhsil qurumuna və ya öyrətmə rejiminə, öyrənmə resursuna, öyrənənlər qrupuna və ya xüsusi bir dərs müddətinə bərabər tutula bilməz. Bu, həyat boyunca davam edən geniş çeşidli formal və informal digər yanaşmaları, proqramları və təşəbbüsləri, eləcə də qeyri-formal, yəni mülki və siyasi təhsil, insan hüquqları, mədəniyyətlərarası və sülh təhsili, qlobal təhsili, davamlı inkişaf üçün təhsili və s. ehtiva edən bir **kompleks** və **tam** yanaşmadır.

Buna görə də ona plüralist demokratiyada vətəndaşların məhsuldar həyat sürmələrinə imkan yaradan dəyərlərə əsaslanan biliyin, təcrübəyə əsaslanan bacarıqların və dəyişikliyə hədəf tutan səlahiyyətlərin artması üçün lazım olan bir **kompleks alət** kimi baxılır. Xüsusilə də Tövsiyənin müəyyən etdiyi kimi DVT demokratik vətəndaşın şəxsi və demokratik cəmiyyətin bütövlükdə inkişafı üçün vacib olan özünütəhlili, tənqidi düşüncəni, seçim azadlığını, ümumi dəyərlərə bağlılığı, müxtəlifliklərə hörməti, digərləri ilə konstruktiv əlaqələri və münaqişələrin sülh yolu ilə həllini təşviq edir.

### b) Avropa Birliyi

2000-ci ildə başladılmış *Lissabon Strategiyasında* və *2002-ci ildə qəbul edilmiş Avropada Təhsil və Tədris Sistemlərinin Məqsədlərinin Davam Etdirilməsi üzrə Ətraflı İş Proqramında* Avropa Birliyi özünün strateji məqsədləri arasına Avropanı

> "daha çox və yaxşı iş yerləri və daha artıq sosial bütövlüyün olduğu davamlı iqtisadi inkişafa qadir olan dünyada ən rəqabət qabiliyyətli və biliklərə əsaslanan iqtisadiyyat etmək" [4]

məqsədini güdən **fəal vətəndaşlığı** daxil edir.

Fəal vətəndaşlıq ali təhsilin məqsədlərini müəyyən edən Bolonya Prosesinin, Avropa Həyat Boyu olan Öyrənmə Strategiyalarının, eləcə də Avropa gənclər siyasətlərinin vacib bir məqsədi kimi qəbul edilmişdir. Gənclərlə bağlı Avropa Komissiyasının 1991-ci il tarixli *Avropa Gəncliyinin Yeni İnkişaf Stimulları* sənədi gənclərin müstəqilliyinə və fəal vətəndaşlara əsaslanan yeni Avropa idarəetmə formalarını təşviq edir, eyni zamanda *Avropa İdarəçiliyi* barədə Ağ Kağız (Avropada qanun forması-tərc. qeydi) açıqlığı, iştirakı, məsuliyyətliliyi, effektivliyi və bütövlüyü yaxşı demokratik idarəçiliyin əsas prinsipləri olduğunu müəyyən edir.

## 4. Müəllimlərin tədrisi üçün daha effektiv sistemlərə ehtiyac

Bununla belə fəal, məlumatlı və məsuliyyətli vətəndaşlığa olan ehtiyac indi ümumilikdə razılaşdırılsa da və belə vətəndaşlığın yaradılmasında təhsilin rolu demək olar ki, hər yerdə qəbul edilsə də hazırkı sübutlar göstərir ki, DVT-yə olan ehtiyacın ritorikası ilə praktikada faktiki baş verənlər arasında həqiqətən də real bir boşluq vardır.

[3] Demokratik Vətəndaşlıq üçün Təhsil barədə Nazirlər Komitəsinin 12 saylı Tövsiyəsi (2002).
[4] *Avropada Təhsil və Tədris Sistemlərinin Məqsədlərinin Davam Etdirilməsi üzrə Ətraflı İş Proqramı*, 2002.

Bu, Avropa Şurasının hazırladığı son iki araşdırması ilə təsdiq edilmişdir: *Demokratik Vətəndaşlıq üçün Təhsil və Şərqi Avropada Müxtəlifliklərin İdarə Olunması Siyasətləri üzrə Qiymətləndirici Araşdırma və DVT Siyasətləri üzrə Ümumavropa Araşdırması.*

Avropa Şurasının *DVT Siyasətləri üzrə Ümumavropa Araşdırmasının* gəldiyi nəticələrdən biri də üzv dövlətlərdə bütün təhsilin səviyyələrində və sektorlarında DVT üçün siyasi niyyətlər ilə bu niyyətləri effektiv siyasətlərə və real təcrübələrə çevirmək üçün adekvat resursların – məlumat, insan, maliyyə və texnoloji – təminatı arasında uçuruma bənzər əhəmiyyətli **"uzlaşma boşluğunun"** olması idi.

*DVT Siyasətləri üzrə Ümumavropa Araşdırması* xüsusilə də bu nəticəyə gəlmişdir ki:

"siyasi bəyanatlarda əhəmiyyət verilsə də müəllimlərin tədrisi sxemləri DVT-nin icra edilməsi üçün tədbirlərə kifayət qədər dəstək vermir"[5]

O, ümumilikdə müəllimlərin fəaliyyətə başlamazdan əvvəl və fəaliyyətləri zamanı DVT sahəsində peşəkar inkişafı üçün çox cüzi sistematik dəstəyin olduğunu müəyyən etmişdir. Bir çox hallarda müəllimlərin fəaliyyətləri zamanı tədris fəaliyyətləri ayrıca götürülmüş (ad hoc) təşəbbüslərin, bir məktəbə aid sxemlərin və ya məktəblə vətəndaş cəmiyyəti arasında əməkdaşlığın nəticəsi idi. Müəllimlərin ilkin tədrisində DVT təşəbbüslərinin olduğu zaman da onlar çox ümumi xarakter daşıyırdı. Bu hallardan bəziləri nadir hallarda bir dövlət proqramına və ya bir DVT siyasətinin icrası sisteminə gətirilmişdir, istisna olanlar İngiltərənin Vətəndaşlıq Təlimi Assosiasiyası, Rusiya Federasiyasının Federal Mülki Təlim Mərkəzi, Çex universitetlərinin "Yeni Üfüqlər" müəllimlər üçün tədris proqramı və Macarıstanda müəllimlərin tədrisi üçün mülki və vətəndaşlıq araşdırmalarıdır.

Bu müşahidə çox asan bir şəkildə hətta DVT siyasətlərində uzunmüddətli təcrübəyə malik olan Qərbi Avropa regionunda belə aparılan araşdırmadan əldə edilə bilər:

"Qərbi Avropa regionunda ümumi vəziyyət DVT ilə bağlı məhdud, tək-tək baş verən müəllim tədrisi, bunlardan çoxu da müəllimlərin fəaliyyətə başlamasından əvvəl çox ümumi olması və fəaliyyət zamanı isə fakültativ olması ilə səciyyələnir. Bu, müəllimlərin effektiv DVT təcrübələrinin yaradılmasındakı vacib rolu ilə uyğun gəlmir. O, müəllimlərin bir çox ölkələrdə vətəndaşlıq və vətəndaş təhsilinin islahatı ilə bağlı olan daha fəal, iştirakçı yanaşmanı təşviq etmək qabiliyyətlərini və bunun effektivliyini ciddi sual altına alır" [6]

Aydın olur ki, DVT-nin müvəffəqiyyəti müəllimlərdən asılıdır. Onlar öyrənənləri yeni konsepsiyalar və dəyərlərlə tanış edir və onları izah edirlər, yeni bacarıqların və vərdişlərin yaranmasını asanlaşdırırlar və öyrənənlərə bu bacarıqları və vərdişləri evdə, məktəbdə gündəlik həyatlarında və yerli icmada tətbiq etməyə imkan verən şərait yaradırlar.

Bununla belə DVT-nin insanları həyat üçün fəal və məsuliyyətli vətəndaşlar kimi hazırlamaqda rolunun qəbul edilməsi müəllimlərin vəzifələrini artırır və onların qarşısında yeni tapşırıqlar qoyur. Bu tapşırıqlardan bəziləri uzaq 1987-ci ildə Avropa Şurasının Helsinkidəki Təhsil Nazirlərinin 15-ci Daimi Görüşündə qeyd edilmişdir. *Müəllimlərin yeni tapşırıqları və onların təhsili barədə Qətnamə* müəllimlərin ehtiyac duyduqları yardım və həvəsləndirmə növlərinə, o cümlədən müəllimlərin sinif otağının idarə edilməsinin, komanda işinin və yerli və digər tərəfdaşlarla əməkdaşlığın yeni formaları üçün lazım olan şəxsi və sosial bacarıqları əldə edə bildikləri, eləcə də Avropa dəyərlərini və müasir, plüralist cəmiyyətlərdə gənc öyrənənlərə onların ötürülməsini başa düşə bildikləri fəaliyyətə başlamasından əvvəl və fəaliyyət zamanı tədrisinə diqqət çəkir.

[5] *DVT Siyasətləri üzrə Ümumavropa Araşdırması*, Avropa Şurası, Strasburq, DGIV/EDU/CIT (2004) 12, səh. 22.
[6] Kerr, D., *DVT Siyasətləri üzrə Ümumavropa Araşdırması çərçivəsində Qərbi Avropa üzrə Regional Hesabat,* Avropa Şurası, Strasburq, 2003, səh. 38.

O, həm də mədəniyyətlərarası təhsil, insan hüquqları və demokratik vətəndaşlıq, Avropa və qlobal məsələlər, səhiyyə və təhlükəsizlik üzrə təhsillə tanışlıq deməkdir. Bundan əlavə DVT-nin yeni rolu həm də DVT-nin təşviqində iştirak etməli olan şəxslərin kateqoriyalarını da genişləndirir. Demokratik Vətəndaşlıq üçün Təhsil barədə *Rec 12 Tövsiyəsi (2002)* yalnız məktəb müəllimlərinin deyil, eləcə də qeyri-formal və informal təhsil sahəsində çalışan geniş çeşidli şəxslərin, xüsusilə də təlimçilərin, məsləhətçilərin, mediatorların və fasilitatorların fəal iştirakını nəzərdə tutur. Ona görə də DVT-nin keyfiyyəti bütün bu şəxslərin həm DVT təliminə başlamazdan öncə, həm də DVT zamanı hazırlığından və təlim görməsindən asılıdır.

Hazırkı vəziyyət göstərir ki, bu günə kimi müəllimlərin və digər şəxslərin tələb etdiyi kompleks, fənlərarası və dinamik formada təlimin verilməsi yalnız məhdud və sporadik (ayrı-ayrı hallar) olmuşdur. Ona görə də üzv ölkələrin hamısında həm fəaliyyətə başlamazdan öncə, həm də fəaliyyət zamanı DVT üzrə müvafiq və koordinasiya edilmiş tədris proqramlarının yaradılması üçün daha effektiv sistemlərin hazırlanmasına kəskin ehtiyac vardır.

## 5. Müəllimlər üçün tədris proqramlarının təmin edilməsinə təsir edən amillər

DVT siyasətinin həyata keçirilməsində müəllim tədrisinin əhəmiyyətli rolunu müəyyən etdikdən sonra indi biz **müəllimlər** üçün tədrisin verilməsinə və onun xarakterinə təsir edən bəzi əsas faktorlara nəzər salacağıq, baxmayaraq ki, bu məsələlərin çoxunu digər şəxslərin olduğu hallara da bərabər şəkildə şamil etmək olar. Bunlar ümumi şəkildə iki kateqoriyaya ayrılırlar: DVT-nin təbiətindən yaranan və onun məktəblərdə hazırlanma yöntəmindən yaranan amillər; hal-hazırda mövcud olan müəllim tədrisinin təbiətindən yaranan faktorlar.

a) DVT-nin təbiətindən yaranan amillər

DVT-nin təbiəti və onun məktəblərdə hazırlanma yolunun tələb olunan müəllim tədrisinin həyata keçirilməsi və xarakteri üçün vacib olan konsepsiyaları vardır. Onlara daxildir:

1. **DVT həm məktəb fənnidir, həm də bütöv məktəb yanaşmasıdır**. O, diskret fənn təlimini, karikulumarası işi, demokratik məktəb təcrübələrini və cəmiyyətin iştirakını əhatə edir. Bu o deməkdir ki, tədris həm ümumi səviyyədə *bütün* müəllimlər üçün və həm də *xüsusi fənn müəllimləri* – xüsusilə tarix, politologiya və sosiologiya kimi vətəndaşlıq və ya vətəndaş təhsili və onunla sıx bağlı olan "karyera" fənlərini tədris edənlər üçün bir məsələdir. DVT bütün məktəbi əhatə edən bir proses olduğu halda tədrisin özü də *məktəb direktorları* və *böyük idarəetmə qrupları* üçün bir məsələdir. O, aşağıdakılar daxil olmaqla həm də müəllimlərin tədrisinin *bir neçə müxtəlif səviyyələrdə* aparılmasını təklif edir:

    - karikulum (tədris proqramı) məzmunu
    - öyrətmə və öyrənmə metodologiyaları
    - idarəetmə vərdişləri
    - insanlarla işləmə və ya iştirak etmə vərdişləri.

2. **DVT "aşağıdan yuxarıya" doğru inkişaf etməyə meyl etmişdir,** xüsusən də təmərküzləşmişmiş təhsil sistemlərinin və müəllim avtonomiyasının yüksək səviyyədə olduğu ölkələrdə. Bunun baş verdiyi yerlərdə müəllim tədris fəaliyyətləri bu vaxta qədər mövcud olduğu kimi parçalanmış və qeyri-sistematik olmağa, müstəqil şəkildə təşkil olunmuş, qismən və ya tam şəkildə yerli və beynəlxalq qeyri-hökumət təşkilatlarının və ya hökumətlərarası

təşkilatların, pedaqoji qurumların və peşəkar assosiasiyaların qarışığından hazırlanmış kurslardan, 11 seminarlardan və ya konfranslardan ibarət olmağa meyllidir. Bu, ümumi səviyyədə və fərdi üzv dövlətlərdə mövcud tədris etmənin təbiətinin *araşdırılmasını* və həm regional, həm də dövlət səviyyəsində gələcəkdəki tədrislərdə *daha çox koordinasiya edilmiş yanaşmanı* tələb edir.

3. **DVT yenilikçi bir konsepsiyadır.** Təhsilin demokratikləşdirilməsinin məktəblər və müəllimlər üçün əhəmiyyətli mənası vardır. Bəzi hallarda ölkələrin çox radikal bir şəkildə öyrətmə oriyentasiyasının fundamental dəyişməsi deməkdir, xüsusən də öyrətməyə və öyrənməyə ənənəvi "yuxarıdan-aşağı" yanaşmaların və səlahiyyətə iyerarxiyalı yanaşmanın üstün olduğu təhsil sistemlərində. Tələb olunan tədris fəaliyyət növləri buna görə də çox zaman adi müəllim tədrisində olduğundan *daha geniş miqyasa* malikdir və daha *açıq, iştirakçı və demokratik öyrətmə və öyrənmə üslublarının* hazırlanmasına aid olan fundamental məsələləri qaldırmalıdır. Fəaliyyət zamanı olan tədris üçün xüsusi olaraq bu, müəllimlərə köhnə və ya dərindən kök atmış öyrətmə proseslərini və təcrübələrini *unutdurmağa* çalışır. Didaktik, müəllimin rəhbər olduğu, dərsliyin üstünlük təşkil etdiyi, biliyə əsaslanan oriyentasiya tələbənin iştirakını, geniş çeşidli öyrətmə metodlarını və daha çox təcrübəyə əsaslanan yanaşmanı vurğulayan biri ilə əvəz edilməlidir.

4. **DVT-nin konsepsiyası heç də hər zaman yaxşı başa düşülmür**. Bəzi hallarda bəzi praktikantlar və siyasət müəyyən edənlər arasında DVT-nin nə olduğu və onun məktəblər üçün nə ifadə etməsi ilə bağlı *məhdud baxışa* meyl olmuşdur. Məsələn heç də nadir hal deyildir ki, DVT-nin məqsədləri kimi mehriban və qayğıkeş hissələrə malik olan şəxslər kimi "yaxşı" vətəndaşlar hazırlamaq müəyyən edilməkdədir. Bu cür qəbul edilməklə DVT-nin məktəblərdə həyata keçirilməsi sadəcə qayğıkeş və diqqətcil davranış toxumunun səpilməsi və gənclərin cəmiyyətin vətəndaşları kimi statuslarının olduğuna görə intellektual stimullaşdırıcı fəaliyyətlərə və problemlərə cəlb etmək yerinə tələbələrin "yaxşı işlərlə" məşğul olmaları üçün imkanların yaradılması ilə məhdudlaşır. Başqa düzgün olmayan qavrayış forması DVT-ni sadəcə spesifik məzmunu olmayan bir öyrətmə metodu kimi görməkdir, çox zaman ümumi olaraq "müzakirə" kimi müəyyən edilir. Başqa birisi isə DVT-ni fərdi inkişafla bağlamaqdır, yəni özünə əminliyin bəslənməsi və artırılması, özünü dəyərləndirmə və s. DVT-nin bu cür şəkildə qəbul olunduğu yerlərdə o təbii ki, başqa məsələlərlə müqayisədə siyasət müəyyən edənlərin və praktikantların gözündə aşağı statusa malik olmuşdur və nəticədə ona müəllimlərin tədrisində aşağı prioritet verilmişdir. Bu səbəbdən DVT-də müəllim tədris proqramlarının təmin edilməsində fundamental səviyyədə müəllimlərin DVT-nin *konsepsiyasını* necə düşündükləri və onun müşayiət edən *münasibət və ya əvvəlcədən formalaşmış fikir* məsələlərinin də diqqətə alınması vacib olan hallar olacaqdır. Tədris proqramları sadəcə müəllimlərə DVT-nin nə olduğu barədə bilgi verməklə - ən azından üzv dövlətlərdə siyasət səviyyəsində indi necə ümumi şəkildə qəbul edildiyi kimi – və ya onun sadəcə yaxşı bir şey olduğunu bildirməklə kifayətlənə bilməz.

5. **DVT müxtəlif ölkələrdə müxtəlif cür həyata keçirilir**. Bəzi ölkələrdə DVT karikumlararası yanaşma ilə tədris edilir, digərlərində ona sosial bilimlər, tarix və ya coğrafiya kimi bir və ya bir neçə fənnin daxili bir hissəsi kimi baxılır. DVT-nin daimi və ya fakültativ məktəb fənni olduğu ölkələr də vardır və digərlərində isə ümumilikdə heç bir proqram yoxdur. Buna oxşar olaraq DVT müxtəlif cür adlar altında ola bilər, məsələn, vətəndaş təhsili, vətəndaşlıq təhsili, insan hüquqları üzrə təhsil, mədəniyyətlərarası təhsil, xarakter təhsili, qlobal təhsil. Onun müxtəlif məqsədləri və diqqət yetirdiyi məqamları ola bilər və ya müxtəlif öyrətmə metodlarından istifadə edə bilər. O, yalnız formal parametrlərə aid ola bilər və ya informal və qeyri-formal öyrənməni də əhatə etmək üçün genişləndirilə bilər. Tədris proqramları praktikada olan bu fərqliliklər barədə xəbərdar olmalı və onların DVT-nin müxtəlif konseptual formada necə əks olunduğunu və vətəndaşların səlahiyyətlərindəki fərqliliklərə necə apardığını nəzərə almalıdır. Əgər belə

olarsa, bu fərqliliklər təhsilə ümumi Avropa yanaşmasının təşviqinə faktiki olaraq mane ola bilərlər və bunun nəticəsində isə Avropada ümumi demokratik mədəniyyətin yaranmasını əngəlləyə bilərlər.

**b) Müəllim tədrisinin təbiətindən doğan amillər**

Mövcud olan müəllim tədrisinin təbiətindən doğan DVT təliminin hazırlanmasına təsir göstərən amillər də vardır:

1. **Müəllim tədrisi geniş çeşidli təlim verənlər tərəfindən həyata keçirilir**. Onlara hökumət orqanları, qeyri-hökumət və hökumətlərarası təşkilatlar, pedaqoji qurumlar, peşəkar icmalar, özəl və kommersiya şirkətləri daxildir. Bu, çox zaman hökumət orqanlarının bəzən milli səviyyədə həyat keçirilən DVT təliminin səviyyəsi və keyfiyyəti barədə məlumatsız olmaları ilə nəticələnən parçalanmış təlim yaradır. Ona görə də DVT üzrə təlim proqramlarının hazırlanması zamanı fərdi üzv dövlətlər arasında hansı müxtəlif *təlim çatdırma metodlarının* olduğunu və bunların necə *koordinasiya və davam etdirilə biləcəyini* müəyyən etmək vacibdir.

2. **İbtidai və orta təhsil müəllimlərinin normal olaraq müxtəlif növ tədris əldə etmək imkanları vardır**. Müəllimlərin üçün tədrisin keçirilməsi adətən ibtidai təhsil müəllimlərinin ümumiçi və orta təhsil müəllimlərin isə fənn mütəxəssisləri olduğu faktını əks edir. Bu, *ibtidai təhsil* və *orta təhsil müəllimlərinin* həm fəaliyyətə başlamazdan əvvəl, həm də fəaliyyət zamanı DVT tədrisinin çox müxtəlif növlərinə ehtiyacı olacaqdır.

3. **Təzə başlayan və təcrübəli müəllimlərin çox müxtəlif tədris tələbləri vardır.** Fəaliyyətə başlamazdan əvvəl, həm də olan tədris müəllimlərin öz iş fəaliyyətlərinin müxtəlif mərhələlərində müxtəlif ehtiyacları ifadə etməklə adətən tam müxtəlif formalarda qurulur. Fəaliyyətə başlamazdan əvvəl tədris ümumilikdə dövlət tərəfindən təşkil olunur və ya tanınır və əhəmiyyətli bir müddət ərzində - çox zaman 3-4 il ərzində - universitetlər, pedaqoji kolleclər, təlim məktəbləri və ya kommersiya şirkətləri vasitəsilə həyata keçirilir. Başqa tərəfdən isə fəaliyyət zamanı olan tədris ayrıca seminardan növbəti universitet dərəcəsi almağa kimi dəyişə bilər. Bu o deməkdir ki, DVT üzrə *fəaliyyətə başlamazdan əvvələ nəzərdə tutulmuş tədris ehtimalla fəaliyyət zamanı olan tədrisdən müxtəlif bir formada olacaqdır.* Bəzi hallarda o resursların məhdud olduğu yerdə həm də milli strategiyanın bir hissəsi kimi bir və ya başqa resursun *seçimi* ola bilər, məsələn, praktikada fəaliyyət zamanı olan kurslar çox zaman daha çoxsaylı müəllimi qısa müddətdə hazırlayır, eləcə də ilkin müəllim tədris proqramlarından daha ucuzdur.

4. **Fəaliyyət zamanı olan tədris çox zaman könüllüdür**. Daha az mərkəzləşmiş təhsil sistemlərində tədris seminarlarına getmək və ya təlim kursuna daxil olmaq barədə qərar çox zaman müəllimin özü tərəfindən verilir. Maliyyələşdirmə şəxsin və ya məktəbin xərcini ödəyə də bilər ödəməyə də. DVT təliminə daha sistematik yanaşmanı hazırlamaq üçün birbaşa məcburiyyətdən əlavə müəllimləri fəaliyyət zamanı DVT üzrə tədris imkanlarından yaralanmağa həvəsləndirən və ya DVT təlimini karyeranın inkişafı və ya məktəbin inkişaf planları ilə bağlamaqla məktəbləri müəllimlərin DVT üzrə təlim ehtiyaclarına daha yaxından fikir verməyə çağıran *mexanizmlərin* yaradılması vacibdir.

5. **Müəllimlərin tədrisi yeni texnologiyalardan istifadəni artırır**. Müəllimlərin tədrisinə, xüsusilə də fəaliyyət zamanı tədrisinə dəstək vermək üçün internet resurslarından daha çox istifadə edilməyə başlanılıb. Bunlara hadisə təhlilləri, öyrətmə üslubları barədə məlumat, nümunəvi dərs materialları və özünü qiymətləndirmə alətləri daxildir. Bu, bəzən məsafədən

öyrənmə paketi formasında olur. O, müəllimlərin DVT üzrə tədrisinin aspektlərini təmin etmək məqsədi ilə onlayn resursların ən yaxşı formada necə hazırlana biləcəyi məsələsini qaldırır.

# FƏSİL 2

# DƏSTƏK STRUKTURLARI VƏ MEXANİZMLƏRİ

Müəllim üçün tədris siyasətinin səmərəliliyi ilk növbədə onu dəstəkləmək üçün tərtib edilmiş strukturların və mexanizmlərin və onun məqsədlərinin çatdırılması üçün əldə olan informasiya, insan, maliyyə və texnologiya kimi resursların keyfiyyətindən asılıdır. Təhsilin digər aspektlərində olduğu kimi DVT-yə bunlar aiddir.

Bununla belə DVT üzrə müəllim tədrisinin təşviqi üçün lazım olan strukturların yaradılma prosesi hələ də həm siyasətdə, həm də təcrübədə bir çox ölkələrdə nisbətən tam yaradılmamışdır. Bu fəsildə biz daha çox **unifikasiyalı və kompleks** yanaşmaya nail olmaq məqsədi ilə atıla biləcək addımlara nəzər salacağıq.

Biz müxtəlif ölkələrin bu prosesin müxtəlif mərhələlərində olduğunu qəbul edirik. Avropa ölkələrinin hamısı eyni təhsil tarixlərini və ya ənənələrini bölüşmürlər və ya onların DVT siyasətini reallığa çevirməkdən ötrü tələb olunan eyni növ və ya eyni səviyyədə resurs əldə etmək imkanı yoxdur. DVT üzrə müəllim tədrisinin inkişafı bəzi ölkələrdə yaxşı vəziyyətdə olsa da digərlərində isə yalnız uşaqlıq çağındadır.

## 1. Siyasətin müəyyən edilməsi

DVT tədrisinə sistematik yanaşmanın hazırlanması siyasət səviyyəsində başlayır. Bu, öz növbəsində öz kökünü siyasi öhdəlik götürmədən götürür. Buna görə də aydın şəkildə DVT üzrə müəllim tədrisinə milli yanaşmanın arzu olunduğunu ifadə edən **yazılı siyasət** və bunun təcrübədə reallığa çevrilməsi üçün lazım olan resursları tapmaq öhdəliyinin götürülməsi tələb olunur. İdeal olaraq buna həm fəaliyyətə başlamazdan əvvəl, həm də fəaliyyət zamanı tədris daxildir, amma resursların məhdud olduğu zaman qısa müddət ərzində onlar sonuncu ilə bağlı məhdudlaşdırıla bilərlər. Ora həm də DVT tədrisi ilə əlaqəsi olan həm dövlət, həm də qeyri-dövlət orqanları, xüsusən də QHT-lərin oynadığı və ya oynaya biləcəyi vacib rol üçün məkan yaradılması öhdəliyi daxil olmalıdır.

İşlərin mövcud vəziyyətinə pis və ya natamam şəkildə qavrayışa əsas milli siyasətin təcrübədə uğurlu olması ehtimalı yoxdur. Ona görə də vacibdir ki, siyasətin müəyyən edilməsindən əvvəl ölkədə aparılan DVT tədris təşəbbüslərinin **auditi** və **qiymətləndirilməsi,** eləcə də cari ehtiyacların qiymətləndirilməsi həyata keçirilməlidir.

## 2. Siyasətin həyata keçirilməsi

Dövlət orqanlarında siyasətin həyata keçirilməsi üçün **məsuliyyətin** aydın şəkildə müəyyən edilməsi vacibdir. Məsuliyyətlərin müxtəlif idarəetmə sahələrində olduğu yerlərdə, məsələn, fəaliyyətə başlamazdan əvvəlki və fəaliyyət zamanı tədrislə bağlı məsuliyyətlərin hamısının nazirliklər, universitetlər, pedaqoji institutlar, milli DVT tədris mərkəzləri və ya peşəkar orqanlar tərəfindən ümumi şəkildə müəyyən formada **koordinasiya** edilməsi vacibdir. Şəraitin imkan verdiyi təqdirdə regional koordinasiya, o cümlədən regional müşavirlərin olması ilə də bağlı arqumentlər vardır. Bununla belə milli səviyyədə olan koordinasiya siyasətin həyata keçirilməsinə mərkəzləşdirilmiş, avtoritar və ya "yuxarıdan-aşağıya" olan bir yanaşma ilə qatışdırılmamalıdır. DVT-nin elementlərinin həm dərs karikulumuna, həm də məktəbin mədəniyyətinə daxil edilməsinin dərin köklü təşəbbüsləri – məktəbə əsaslanan sxemlərin və məktəblə vətəndaş cəmiyyətinin əməkdaşlığı – çox zaman QHT-lər tərəfindən

dəstəklənir və ya hökumətin stimullaşdırıcı fəaliyyətləri ilə həvəsləndirilməsi bu gün bir çox ölkələrdəki məktəblərdə DVT inkişafının təbiətindədir. Eyni zamanda DVT-nin təbiətində bir konsepsiya kimi "aşağıdan-yuxarıya" təşəbbüslərin yetişməsi üçün imkanların yaradılması da vardır. DVT-nin ən son məqsədi insanlara daha həqiqi demokratik cəmiyyət və bəxş etməkdir və buna nail olmağın yeganə yolu daha həqiqi **demokratik təhsil mədəniyyətinin** yaradılmasıdır.

Bu cür qəbul edilməklə milli koordinasiya mərkəzi hökumətin diktatlar verməsi yox, əksinə müxtəlif xüsusi DVT tədris təşəbbüslərinin **bir sistematik milli və ya federal proqramda və ya siyasətin icrası sxemində** birləşdirilməsidir. Bu, şəxslərin, məktəblərin və yerli şəbəkələrin könüllü fəaliyyətinin dəstəklənməsi yolunun tapılması, eləcə də bundan yaranan tədrisetmənin monitorinqi və qiymətləndirilməsi deməkdir.

## 3. Fəaliyyətə başlamazdan əvvəl tədris

Fəaliyyətə başlamazdan əvvəl DVT-nin hazırlanmasındakı ilk addım bütün yeni müəllimlərin tədrisinə DVT-nin **ümumi elementinin** daxil edilməsidir. İlkin səviyyədə bu karikulumlararası bir bilik kimi bütün məktəb karikulumunun kontekstində həyata keçirilməlidir. İkinci səviyyədə bu, təlim alanın ixtisas fənləri kontekstində həyata keçirilir, yəni DVT sosial bilimlər və s. vasitəsilə necə öyrədilə bilər.

Hər bir halda tədris həm DVT-nin məzmununu, həm də öyrətmə metodunu – onların digər məktəb fənlərinin tədrisində necə tətbiq edilə biləcəyi daxil olmaqla – və ümumilikdə məktəb həyatına daha demokratik və iştirakçı yanaşmanın yaradılması ilə əlaqədar olan məsələləri ehtiva etməlidir.

İkinci addım ikinci səviyyədə DVT tədrisinə bəzi **ixtisaslaşma elementi** daxil etməkdir, məsələn, DVT-nin başqa bir məktəb fənni ilə birlikdə öyrədildiyi kurslar və ya müəllimin "ikinci fənni" kimi. Bu, DVT ilə fənn arasında nə qədər çox sıx əlaqə olarsa, o qədər də daha çox səmərəli olacaqdır. Ümumilikdə tarix, sosiologiya və politologiya kimi fənlər ehtimal ki, daha uyğun tərəfdaşlardır, amma bu, coğrafiya və ya ana dilinin təhsili və yaxud qeyri-konfessional , çoxinanclı yanaşmaya uyğun olaraq keçildiyi təqdirdə dini tədris kimi digərlərini istisna etmir.

Üçüncü addım DVT-nin bir **ixtisas fənni** kimi ikinci (orta) səviyyəyə daxil edilməsidir və ya birgə kurslar zamanı DVT-nin əsas tərəfdaş etmək. Bura həm də DVT təşəbbüslərinin bütövlükdə məktəb üçün koordinasiyası və sonda digər müəllimlərin DVT üsulları üzrə tədris almaları üçün baza yaradılması daxil ola bilər.

Bununla belə benefisiarlar üçün tədris kursları və ya aspirantların proqramının fəaliyyətə başlamazdan əvvəl DVT üzrə tədris proqramının həqiqətən də səmərəli olması üçün **əlavə dəstək strukturlarına və mexanizmlərinə** ehtiyac ola bilər. Bunlara daxildir:

### 1. Məktəblərə göndərilmələr və ya mütəxəssis tədris məktəbləri

Təzə başlayan müəllimlərin DVT-ni real şəraitdə **təcrübədən keçirmələri** üçün şəraitin yaradılması fəaliyyətə başlamazdan əvvəl DVT tədrisi üçün vacibdir. Bu, məktəbə göndərilmələr və ya mütəxəssis tədris məktəbləri sisteminin yaradılması deməkdir. Məktəbə göndərişlər halında seçilən məktəblər DVT-də yaxşı təcrübəyə nümunə olmalı və öyrənənlərə həm müxtəlif şəraitlərdə DVT təcrübəsi ilə tanış etmək və peşəkar dəstək göstərmək imkanı olmalıdır. DVT-nin hələ yarandığı məktəblərdə bu, məktəblərin bu öhdəliyə bir tədris tapşırığı kimi hansı yolla hazırlanmalarına diqqət yetirməyi də ifadə edə bilər.

**2. DVT – yə aid standartlar və ya səriştələr**

Fəaliyyətə başlamazdan əvvəl DVT tədrisinin, xüsusən də müxtəlif növ qurumların cəlb oluna biləcəyi halda keyfiyyətli şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə DVT aid standartlar və ya səlahiyyətlər kompleksi müəyyən etmək və müəllimlik peşəsinə başlamaq üçün bu biliyə malik olmaq tələb qoyulması faydalıdır. Bir çox ölkələrdə ümumi səviyyədə peşəkar standartlar və ya səlahiyyətlər mövcuddur, amma onlar nadir hallarda mövzu ilə bağlı olur – Avropa Şurasının sənədinə bax: DGIV/EDU/CIT (2000) 21, Demokratik Vətəndaşlıq üçün Tədris: Həyat Boyu Öyrənmə Perspektivi, Sezar Birzea, səh. 83

**3. Keyfiyyətin monitorinqi**

Peşəkar standartların mövcudluğu ilə yanaşı həm də təzə başlayan müəllimlərin inkişafı fəaliyyətə başlamazdan əvvəl DVT üzrə tədris tədbirlərində hansı dərəcədə müvafiq imkanların yaradıldığını **qiymətləndirmək** üçün bəzi vasitələr olmalıdır. Bu, tədrisi həyata keçirən qurumların və ya təşkilatların ümumi keyfiyyətinə nəzarət və ya keyfiyyəti təmin etmə və yaxud rəsmi təftiş sistemi deməkdir.

**4. Tanışlıq dövrü**

Fəaliyyətə başlamazdan əvvəlki tədris kursu başa çatdıqdan sonra yeni müəllimlərə bir müddət verilməlidir ki, bu müddətdə onlara öz peşəkar praktikaya başlayanda onlar məsələn birinci il ərzində öyrəndiklərini möhkəmlədə bilsinlər. Başqa məsələlər arasında bura **məhdud öyrətmə cədvəli,** məsələn 75% və ya 80% və peşəkar dəstəyin müəyyən sistemi daxil olmalıdır.

**5. Peşəkar dəstək**

Başlayan müəllimlər üçün DVT üzrə peşəkar dəstək xaricdən ola bilər, məsələn, ibtidai təhsil üzrə aidiyyatlı qurumlar və təşkilatlar, peşəkar assosiasiyalar, dövlət orqanları və ya digər orqanlar. Bununla belə bura həm də **məktəbdaxili dəstək** daxil olmalıdır. Bu peşəkar tərbiyəçilərin və ya müəllimlərin müəyyən bir sistemi deməkdir, yəni öz vəzifələrinin bir hissəsi kimi işə təzə başlayan müəllimlərin DVT üzrə işinə nəzarət etmək və onu dəstəkləmək olan praktiki müəllimlər. Bu rolun necə başa düşülməsi müəyyən dərəcədə DVT-nin ya bütün müəllimlərin qazanmalı olduğu ümumi səriştə ya da ayrıca bir fənn kimi yaxud da bunların hər ikisi kimi qəbul edilməsindən asılıdır.

Hansı halın olmasından asılı olmayaraq müəllimlərin həm dərslərin müşahidəsi, həm də üzbəüz təmas üçün öz işlərini apara bildikləri **xüsusi vaxtın ayrılmasına** ehtiyacları vardır. Onların həm də **təlimə** ehtiyacları vardır. Peşəkar müəllim olmaq yaxşı DVT praktikantı olmaqdan daha artıq bir şeydir. Bu, DVT üzrə müəllim kursları və ya seminarları və yaxud hansısa növ "müəllim üçün tanışlıq paketi" (öyrənən müəllimlərin özləri üçün paralel birisi ilə) deməkdir. Bu cür başa düşülməklə müəllim təlimi öz-özlüyündə fəaliyyət zamanı DVT tədrisinin bir formasına çevrilə bilər.

## 4. Fəaliyyət zamanı tədris

DVT təliminə fəaliyyət zamanı tədris səviyyəsində sistematik yanaşmanın hazırlanmasında birinci addım ölkədə hal-hazırda yer alan tədris tədbirləri çeşidlərinin **auditini** aparmaqdır. Bunlar ehtimal ki, müxtəlif qurumlar, o cümlədən qeyri-hökumət və hökumətlərarası təşkilatlar, ali təhsil qurumları, özəl və kommersiya təşkilatları tərəfindən təşkil olunacaq və çatdırılacaqdır.

İkinci addım bütün bu tədbirlərin bir **vahid proqrama** daxil edilməsini təşkil etməyə, onlardan hansına milli səviyyədə dəstək göstərməyə və tədrisinin  həyata keçirilməsində aşkar boşluqların olduğunu və onlardan hansını ilk olaraq doldurmaq barədə qərar verilməsinə başlamaqdır. Bu, hər son detalın mərkəzi

hökumət tərəfindən diktə edildiyi mərkəzləşdirilmiş təhsil proqramı ilə səhv salınmamalıdır. Burada əsas ideya müxtəlif fəaliyyətləri – yerli və regional – səmərəli etməkdən ötrü bir sistematik yanaşmada bir araya gətirməkdir.

Ümumi strategiya nəzərindən proses və ya dəstək sahələrinin bir çox müxtəlif yolları mümkündür:

- məktəb direktorları, baş menecerlər və rəhbərlər üçün DVT tədrisi
- bütün müəllimlər üçün ümumi DVT tədrisi
- DVT üzrə müəllim – mütəxəssislərin hazırlanması üçün xüsusi tədris
- Məktəb və ya yerli DVT müəllimlərinin hazırlanması üçün DVT tədrisi.

Metod barədə isə tədris praktikası ya fərdlərə ya da qurumlara (məsələn, bütün məktəb heyəti üçün bir dəfəyə tədris olduqda) yaxud da hər ikisinə diqqət yetirə bilər.

Xüsusilə də DVT tədrisinin hələ də yetişmədiyi və ya resursların məhdud olduğu yerlərdə həyata keçirlər **kütləvi təşəbbüslərə** dəstək verməyə diqqət yetirmək imkanının olması vacibdir. Eyni zamanda DVT tədrisinin "aşağıdan yuxarıya" formalarının yəni yerli könüllü şəbəkələrin, praktika qruplarının və ya DVT üzrə fərdlər qrupların dəstəklənməsi bir konsepsiya kimi elə DVT-nin təbiətindədir. Praktika qrupları bir inancı bölüşən və eyni kompleks təhsil qavrayışlarını və təcrübələrini təşviq edən geniş fərdlər qrupudur – onların hamısının praktik olmasına ehtiyac yoxdur. Fərdlər qrupu öz təcrübələrinin müəyyən aspektlərində bir-birinə dəstək vermək məqsədi ilə birlikdə görüşən kiçik, yerli praktikantlar qrupudur.

DVT üzrə fəaliyyət zamanı tədrisin səmərəli sisteminin təmin edilməsində bir çox **əlavə dəstək strukturları və mexanizmləri vacibdir.** Onlara daxildir:

### 1. Tədris materialları

DVT üzrə fəaliyyət zamanı tədris üçün materiallar müxtəlif formada ola bilərlər, məsələn hadisə tədqiqatları, öyrətmə strategiyaları, qiymətləndirmə üsulları, model dərslər, iş sxemləri, nümunəvi məktəb tədbirləri və s. Onlar internet vasitəsilə ola bilər və ya məsafədən öyrənmə paketi yaxud peşəkar təlimat kitabları formasını ala bilərlər. Onlar eyni zamanda ya DVT tədris elementinin əlavə olunduğu və ya müəllimlərə praktikanın yeni formalarını tanış edə biləcək formada karikulum materialları formasını ala bilərlər, məsələn: dərsliklər.

Tədris video filmləri çoxlu sayda müəllimlərə və məktəblərə faydalı təcrübənin yayılmasının xüsusilə effektiv və qənaətcil yoludur. Onların həm də DVT təcrübələrini real vaxt rejimində nümayiş edə bilmək üstünlüyü vardır.

Tədris materialları yalnız DVT ilə bağlı pedaqogika növlərində səriştə əldə etmək istəyən müəllimləri ehtiyacını deyil, eyni zamanda DVT-nin mövzu tərkibini və onların "müəllim araşdırmaçılar" kimi yetişdirilməsini əks etdirməlidir.

### 2. Keyfiyyətin təmin edilməsi

Keyfiyyətin təmin edilməsi DVT-ni məktəb səviyyəsində daha effektiv etmək üçün bir mexanizmdir. O, məktəblərə özlərinin nailiyyətlərini qiymətləndirməyə, müəllimlərin mövcud olan bilik və bacarıqlarının auditinə (yoxlanmasına) və onların inkişaf ehtiyaclarının müəyyən edilməsinə imkan verir. Müəllimlərə öz bilik və bacarıq səviyyələrini yoxlamağa imkan verən DVT özünü qiymətləndirmə alətləri və məktəblərin bir qurum kimi özünüqiymətləndirmə alətləri, məsələn İngiltərədə Vətəndaşlıq Təhsili Assosiasiyası tərəfindən çap edilmiş

“Vətəndaşlıq Təhsili üçün Məktəb Özünüqiymətləndirmə Aləti”, indi bəzi ölkələrdə vardır. Həm də UNESCO, CEPS (Slovenia) və Avropa Şurasının birlikdə hazırladığı *DVT-nin Məktəblərdə Keyfiyyətinin Təmin Edilməsi Alətinə (Alət 4)* baxın.

**3. Akkreditasiya və formal ixtisas**

Fəaliyyət zamanı DVT tədrisini dəstəkləməyin başqa bir yolu tədris kurslarının dövlət tərəfindən tanınan akkreditasiyası və ya sertifikatlaşdırılmasıdır. **Formal ixtisas** sistemi müəllimlərin şəxsi karyeralarının inkişafı və / və ya məktəb inkişaf və ya təkmilləşdirmə planları ilə sıx bağlı olmaqla hər şeyi daha səmərəli edir. Akkreditasiyasının məqsədi keçmişdə müəyyən dövrlərdə olduğu kimi müxtəlif praktika növlərini senzura edən “lisenziyalaşdırma” deyil, səriştənin artmasını maliyyə mükafatları və / və ya karyeranın inkişafı ilə bağlamaqla müəllimlərə əlavə tədris almaq üçün həvəsləndirmə təmin etməkdir.

**4. Mütəxəssis tədrisi və nümayiş etmə məktəbləri**

DVT üzrə “**Uğurlu mərkəzlər”** kimi məktəblərin bir sisteminin təsis edilməsinin tədris alan müəllimlər üçün fəaliyyətə başlamazdan əvvəl keçilən kursların ardınca yüksək keyfiyyətli məktəbləri və fəaliyyət zamanı təhsil üçün bina təmin etmək kimi iki vəzifəsi vardır. Bu cür “uğurlu mərkəzlər” barədə məlumat Təhsil Nazirliklərinin, yerli təhsil idarələrinin internet portallarında və ya qeyri-formal təhsil şəbəkələri vasitəsilə nümayiş etdirilə bilər.

**5. Peşəkar assosiasiya**

Milli səviyyədə fəaliyyət göstərən güclü DVT peşəkar assosiasiyası kursların təşkili və koordinasiyası araşdırma məlumatlarının yayılması və praktikantların yerli şəbəkələrinin yaradılması vasitəsilə müxtəlif formalarda DVT tədrisinə dəstək göstərməyə qadirdir. O, həm də peşəkar jurnal, xəbərlər bülleteni və ya e-bülleten və / və ya milli DVT mərkəzinin yaradılması yolu ilə DVT təliminin **milli diqqəti mərkəzi** kimi fəaliyyət göstərə bilər.

# FƏSİL 3

# MÜƏLLİMLƏRİN SƏRİŞTƏLİLİYİ

Bu fəsildə biz müəllimlərin tələbələrə onların DVT-ni öyrəndikləri zaman dəstək vermək üçün tələb etdikləri peşəkar səriştələrə və xarakterlərə nəzər salacağıq.

Bunu etməkdən ötrü biz birinci növbədə DVT-nin məqsədlərinə və məramlarına baxmalıyıq, DVT-nin əsas məqsədləri öyrənənləri **fəal, məlumatlı və məsuliyyətli vətəndaşlar** olmağa həvəsləndirmək və dəstəkləməkdir. Belə vətəndaşlar:

- vətəndaşlar kimi özlərinin hüquq və öhdəlikləri barədə **məlumatlıdırlar**
- siyasi və sosial dünya barədə **məlumatlıdırlar**
- digərlərinin rifahı barədə **düşünürlər**
- öz fikirlərini və arqumentlərini **ifadə edirlər**
- dünyaya təsir göstərməyə **qadirdirlər**
- öz icmalarında **fəaldırlar**
- vətəndaş kimi nə hərəkət etdiklərinin **məsuliyyətini dərk edirlər.**

## 1. Uşaqlar DVT-də nə öyrənməlidirlər?

Tələbələrin fəal vətəndaşlar kimi inkişaf etmələrinə yardım etmə onlara öz ölkələrinin konstitusiyası və ya ədliyyə sistemi barəsində məlumat verməkdən daha çoxdur, bura həm də praktiki və konseptual biliklər, səriştələr və bacarıqlar, münasibətlər və dəyərlər daxildir.

Bunlar barədə DVT tədrisinin **üç elementi** kimi düşünmək yaxşı kömək edir:

- **Bilik və dərk etmə**
- **Səriştələr və bacarıqlar**
- **Münasibətlər və dəyərlər**

Bu üç müxtəlif element əhəmiyyətli dərəcədə **qarşılıqlı əlaqəlidir.** Çünki demokratik vətəndaşlıq öz növbəsində elmi araşdırma mövzusu ola bilsə də ilk növbədə və əsasən praktiki fəaliyyətdir. Bu, müxtəlif elementlərin ayrılıqda deyil birlikdə öyrənilməli olduğu deməkdir. DVT üzrə tədris görmüş müəllimlərin yalnız bu üç elementin gənc insanın təhsilinin hər bir mərhələsində qarşılıqlı əlaqəsini bilmək deyil, həm də onların sinif otağında təcrübəyə necə inteqrasiya edilə biləcəyini (həmçinin aşağıda verilmiş Banja Lukada Uşaq Hüquqları günü barədə hadisə təhlilinə baxın) də bilmələrinə ehtiyac vardır.

DVT-ni öyrənmənin bu üç elementi fəal vətəndaşlığın **dörd ölçüsünə** tətbiq edilir:

- **siyasi**
- **hüquqi**
- **sosial**
- **iqtisadi**

Hər bir ölçü ayrıca bilik və dərk etmə, səriştələr və bacarıqlar, münasibətlər və dəyərlər tələb edir. Onlar müvafiq olaraq öyrənənlərə cəmiyyətə inteqrasiya etmək, yaşadıqları ölkələrin mədəni ənənələrinə və inkişafına diqqət yetirmək, iş tapmaq və siyasi qərarların qəbul edilməsində iştirak etmək imkanı yaradır.

DVT təliminin həm araşdırmada, həm də təcrübədə inteqrasiya oluna bilən spesifik elementləri ən yaxşı halda ayrıca təsvir edilə bilər.

**a) Bilik və dərk etmə**

DVT-də nəyin bilinməli və dərk edilməli olduğu üç elementdə ümumiləşdirilə bilən siyasətin əsas strukturunu təsvir edir: siyasət *institusional əsaslara* əsaslanır, siyasət əsasən *qərar qəbul etmə prosesidir* və siyasət cəmiyyətin gələcəyinin asılı olduğu kompleks *məsələlərin* həllinə diqqət yetirir:

- **İnstitusional əsasların dərk edilməsi**

  Siyasət – bizim demokratik sistemimiz necə işləyir?
  Qanun – qanunların qəbul edilməsində və qərarların verilməsində hansı orqanlar və qurumlar iştirak edir?
  İqtisadiyyat – dövlətin maliyyəsi necə təşkil edilib və biznesin rolu nədir?
  Cəmiyyət – cəmiyyət necə qurulub?

- **Fəaliyyətdə necə iştirak etməyin və ora cəlb olunmanın öyrənilməsi**

  Vətəndaşlıq – mənim qanuni hüquq və vəzifələrim nədir?
  İştirak – mən necə dəyişiklik edə bilərəm?
  İnsan hüquqları – bizim əsas insan hüquqlarımız nədir və onlar cəmiyyətdə necə tətbiq olunurlar?

- **Əsas məsələlər üzrə fikrin başa düşülməsi və formalaşdırılması**

  Cari işlər – yeniliklərdə nə vardır və onu kim seçir?
  Maraqlı qruplar – kim iştirak edir və onlar necə hakimiyyətə malikdirlər?
  Dəyərlər və ideologiyalar – ortaya hansı inanclar və dəyərlər gəlir?
  Münaqişənin həlli – mübahisələr sülh yolu ilə necə həll edilə bilər?
  Qloballaşma – qloballaşma mənim və xaricdə olan digərlərinin həyatına necə təsir edir?
  Davamlı inkişaf – buna necə nail olmaq olar?

**b) Səriştələr və bacarıqlar**

DVT-nin tədrisində gərəkli olan səriştələr və bacarıqlar növünə aşağıdakılar daxildir:

- **Fikir ifadə etmə –** şəxsi fikri necə ifadə etmə və əsaslandırma
- **Tənqidi düşüncə və arqumentasiya –** necə mülahizələr yürütmək və arqumentlər formalaşdırmaq
- **Problemin həll edilməsi –** DVT problemlərini necə aşkar və müəyyən etmək və ümumi nəticələrə gəlmək
- **Qərar qəbul edilməsi –**kollektiv qərarlar üçün necə danışıqlar aparmaq
- **Mədəniyyətlərarası bacarıqlar –**məsələləri digər şəxslərin baxışlarından necə görmək
- **Tədqiqat –**DVT məsələlərini necə araşdırmaq və təqdim etmək
- **Siyasi fəaliyyət –**lobbiçilik və təbliğat formalarına necə cəlb olunmaq

- **Qiymətləndirmə** –fərdi və kollektiv öyrənməni necə qiymətləndirmək.

**c) Münasibətlər, dəyərlər və adətlər**

Bilik və bacarıqlar hər zaman istifadə edilə biləcək alətlərdir. Onlar özləri fəal və məsuliyyətli vətəndaşlığın həyata keçirilməsinə aparmır. Ekstremal yanaşmada bilik və bacarıqlar demokratik vətəndaşlıqda yalnız demokratlara yardım etmir, eyni zamanda onlar demokratiyanı məhv etmək üçün silaha da çevrilə bilərlər. Bundan əlavə cəmiyyətdə müsbət iştirak etmək arzusu və bu arzunu reallığa çevirmək iradəsinin olması tələb olunur. Bu, DVT tədrisinin hər zaman normativ, dəyərlərə əsaslanan ölçülərini ehtiva etməli olduğunu göstərir. Demokratik münasibətlərin və dəyərlərin mahiyyəti ondadır ki, demokratik vətəndaşlıq yalnız dərk edilməli və faydalanmalı deyil, həm də ona hörmət edilməli və qiymətləndirilməli və lazım olarsa skeptisizmdən və avtokratiyadan qorunmalıdır. Bununla belə bu cür dəyərlərin və münasibətlərin məktəbdə təşviqi kifayət qədər qanuni olsa da, onlar bilik və bacarıqlardan fərqli olaraq formal qiymətləndirilməməlidir.

- **Demokratik vətəndaşlıq üçün münasibətlər və adətlər**

  Açıqlıq
  Mədəni və sosial müxtəlifliklərə hörmət
  Bölüşməyə və ayırmağa hazırlıq
  Etibar və doğruluq
  Həqiqətə sədaqət
  Özünə və başqalarına hörmət
  Qeyri-müəyyənliyə və açıq, həll olunmamış vəziyyətlərə qarşı dözümlülük
  Özünə əminlik – öz fikirlərini açıq şəkildə və cəsarətlə irəli sürmək
  Demokratik liderlik – qərar qəbul edilməsinə digərlərini də cəlb etmək
  Qrup işi və əməkdaşlıq

- **Demokratik vətəndaşlıq üçün dəyərlər**

  İnsan hüquqları
  Bərabərlik
  Azadlıq
  Ədalət
  Sülh
  Qarşılıqlı asılılıq
  Plüralizm
  Davamlı inkişaf.

## 2. DVT-ni dəstəkləyə bilmək üçün müəllimlərə hansı bacarıqlar lazımdır?

DVT-ni dəstəkləyə bilmək üçün müəllimlərə lazım olan bacarıqlar fəal və məsuliyyətli vətəndaşlıqla bağlı olmalıdır. Onlar bir neçə ümumi kateqoriyalara ayrılırlar:

**a) Fənn biliyi**

Birinci növbədə müəllimlər fənni (mövzunu) yaxşı bilməlidirlər, yəni DVT-nin **məqsəd və məramlarını**, bilik və dərk etmə dərəcəsi, bacarıqlar və səriştələr və gənc insanlarda yaranan dəyərlər və adətlər (yuxarıya bax). Bu biliklər olmadan müəllim tədris məqsədləri seçə və onlara nail olmaq üçün fəaliyyətləri planlaşdıra və ya bilik, bacarıq və dəyərlərin öyrənilməsində balansa nail ola bilməz.

**b) Karikulum məzmunu**

Müəllimlərin həm də öz ölkələri və ümumilikdə bütün dünya ilə bağlı karikulumun məzmunu – **sosial, mədəni, siyasi və iqtisadi dərk etmə** - barədə kifayət qədər biliyə malik olmalarına ehtiyac vardır. Bura həm də demokratiyanın institusional əsaslarının, konstitusiyanın, insan və mülki hüquqların daxil olması gözlənilir.

**c) Öyrətmə metodları**

Ümumi biliklər və fənn biliyi DVT ilə bağlı müəllimlərin nə öyrədəcəklərini göstərsə də onların özləri müəllimlərə DVT-nin necə tədris edilməsini demirlər. düzgün növ öyrətmə metodlarının hazırlanması və onlardan necə və nə zaman istifadə etməyi öyrənmə DVT üzrə müəllim hazırlığının ən vacib sahələrindən biridir.

**d) İdarəetmə və insanlara işləmək bacarıqları**

DVT bütöv məktəb yanaşması olduğu qədər də sinif fənnidir, müəllimlərin həm də DVT ilə bağlı vacib idarəetmə və insani bacarıqların aşılamasına ehtiyac vardır, məsələn: yerli icma ilə necə əlaqə qurmalı və onu cəlb etməli, tələbəni məktəb həyatında iştirak etməyə necə ruhlandırmalı, potensial ziddiyyətli və həssas mövzularla necə davranmalı və s.

**e) Qiymətləndirmə və təkmilləşdirmə**

DVT cəmiyyətdə nə baş verdiyinə və fərdlərin öz icmaları və daha böyük səviyyədə cəmiyyətlə münasibətlərinə əsaslandığı üçün dinamikdir. Bu xarakter müəllimlərin mütəmadi olaraq şəxsi inkişafı və təkmilləşdirilməsi, eləcə də onların bütün məktəbdə DVT-nin keyfiyyətinin təmin edilməsində iştirakı və töhfələrini vermək vasitəsi ilə DVT-ni qiymətləndirməyi və təkmilləşdirməyi tələb edir.

**Hadisə təhlili**

Məsələn düşünün ki, müəllim tələbələrin demokratik bacarıqlarının inkişaf etməsinə yardım etmək istəyir. Bunu həyata keçirməyin yollarından biri də tələbələrə hava limanından turist istirahət mərkəzinə yüksək sürətli magistral yol çəkmək barədə düşünməyə dəvət etməkdir. Magistral yol iqtisadi cəhətdən əhəmiyyətli olsa da məsələn yaxınlıqdakı yaşayış sahəsində səs-küy, havanın çirklənməsi baxımından. digər cəhətlərdən əhəmiyyətli deyildir. Tələbələr hər iki tərəfdən öz arqumentlərini irəli sürməyə və bu barədə qərar verməyə həvəsləndirilir. Bu istiqamətdə onlar kompromisə gəlməyin mümkün olub-olmadığını nəzərdən keçirmək olar, yəni magistral yolun istiqamətini dəyişmək və ya səs-küydən qorumaq üçün divarların tikilməsi.

Müzakirəni stimullaşdırmaq məqsədi ilə müəllim tədbirə tələbələr tərəfləri təmsil etməklə real həyatda baş verən qərar qəbul etmə prosesini simulyasiya edən rol ifasını təşkil etməklə başlaya bilər.

Bu yolla müəllim bir çox DVT tədris məqsədlərini inteqrasiya edə bilir: demokratik proseslər barədə sadəcə bilik deyil, eyni zamanda fikir ifadə etmə və arqument irəli sürmə, eləcə də qərar qəbul edilməsində qeyri-müəyyən və açıq vəziyyətlərdə işləyə bilmə qabiliyyəti.

## 3. Tədris metodları

DVT üzrə öyrətmə metodları onun məzmunundan daha az başa düşüldüyü üçün biz bunlara daha ətraflı şəkildə baxacağıq.

Hər bir öyrətmə və öyrənmə tədbirində olduğu kimi burada da sikl vardır:

- **Planlayın** –tələbələrin DVT üzrə əvvəllər aldıqları təlimi nəzərə alan DVT tədris məqsədlərini seçin və sonra tədris fəaliyyətlərini elə tərtib edin ki, bu məqsədlərə nail olasınız
- **İcra edin** –Tədris fəaliyyətlərini həyata keçirin
- **Qiymətləndirin** –Tələbələrin öyrənməli olduqları nəzərdə tutulan şeyləri öyrənib-öyrənmədiklərini yoxlayın
- **Ümumi qiymətləndirin** –ümumi tədris fəaliyyətini uğurunu əks etdirin və sonrakı tədrisi onun nəticələrinə uyğun olaraq planlaşdırın

Bu siklin mərhələlərindən hər biri DVT müəllimindən bacarıqların məxsusi şəkildə repertuarını tələb edir. Bununla belə bunlar hər bir fənn üzrə tətbiq oluna biləcək ümumi bacarıqlar deyil. DVT müəllimlərinin məsələn, DVT-də istifadə edilə biləcək tədris məqsədlərinin növlərini öyrənməsinə – misal üçün müzakirə, rol ifası, simulyasiyalar, layihə işi və onların səmərəli şəkildə DVT-də necə istifadə edilə biləcəyini bilmələrinə ehtiyac vardır. Buna oxşar olaraq onlar DVT-də qiymətləndirilə bilən tədris növlərini və onların necə qiymətləndirilə biləcəyini bilməlidirlər.

DVT gənc insanları sadəcə fəal vətəndaşlar kimi cəmiyyətdə iştirak etməyə hazırlayan təhsil fəaliyyətinin fərqli bir formasıdır və buna görə də **fərqli tədris formalarına** malikdir. Müəllimlər bu fərqli formalı tam bilməli və onları müxtəlif şəraitlərdə həyata keçirməyi bacarmalıdırlar. Onlara aşağıdakı kimi olan tədris formaları daxildir:

- **İnduktiv (həvəsləndirici)** –abstrakt konsepsiyalardan başlamaq yerinə öyrənənlərə həll edilmək və ya barəsində qərar qəbul etmək üçün konkret problemlərin təqdim edilməsi və onların

həmin həlləri bu vəziyyətdən çıxış edərək digər vəziyyətlər üçün ümumiləşdirməyə həvəsləndirilmək

- **Aktiv –**öyrənənlərə nə isə deməyin və ya göstərməyin əvəzinə onlara bir şeyi özlərinin etməsi ilə öyrətmək
- **Münasib** –tədris işini məktəbin və ya kollecin, icmanın və ya daha geniş bir dünyanın real vəziyyətləri ətrafında hazırlamaq
- **Kollektiv** –qrup və kooperativ (əməkdaşlıq) işdən istifadə etmək
- **İnteraktiv** –müzakirələr və debatlar vasitəsi ilə öyrətmə
- **Tənqidi** –özlərinin fikirləri və görüşləri barədə özlərinə sual verməyə çağırmaq və onlara arqument irəli sürmə bacarığını inkişaf etməyə kömək etmək
- **İştirakçı –**öyrənənlərin özlərinin öz tədris proseslərinə töhfə verməsinə imkan yaratmaq, məsələn müzakirə və araşdırma üçün mövzu təklif etməklə və ya onların özlərinin və ya digərlərinin biliklərini özləri tərəfindən qiymətləndirilməsi.

Tədrisin növü birbaşa olaraq DVT-nin məqsdəindən doğur və müəllimlər onlardan istifadə etməyi bacarmalıdırlar, məsələn müzakirələri və debatları necə idarə etməyi, qrup işini təşkil etməyi, müxtəlif formalarda sorğuların istifadə edilməsini və s. bilmək.

## 4. İdarəetmə və insanlarla işləmək bacarıqları

DVT müəlliminə lazım olan bir çox müxtəlif idarəetmə və insanlarla işləmək bacarıqlarına malik olmaq tələb olunur. Onlar əsasən aşağıdakı kimi daha aydın görülür:

### a) Müvafiq tədris mühitinin yaradılması

Effektiv DVT tədrisinin həyata keçirilməsi üçün müəllimlər **təhdid yaratmayan** və hər bir kəsə gülüş obyekti olmadan sərbəst danışmaq imkanı yaradan mühit yarada bilməlidirlər.

Müəllim üçün həm də **tədris mühitinin nəzərdə tutulan tədris məqsədləri ilə uzlaşmasını və ya həmin məqsədləri dəstəkləməsini** təmin etmək vacibdir, yəni başqa sözlə “mühitin mesaja uyğun gəlməsi”. Məsələn uşaq hüquqları barədə olan bir müzakirədə tələbələr elə formada oturmalıdırlar ki, onlar bir-birlərini dinləyə və cavab verə bilsinlər, daha yaxşı olar ki, dairə şəklində. Buna oxşar olaraq fikir ifadə etmə azadlığı yalnız demokratiyanın bir prinsipi kimi başa düşülməli deyil, amma həm də tələbənin diqqət mərkəzində olduğu tədris metodlarını təklif etməklə sinif otağında həyata keçirilməlidir.

### b) Səriştə və bacarıqların, dəyərlər və adətlərin modelləşdirilməsi

DVT-də müəllimin şəxsiyyəti həm də çatdırılan “mesajın” bir hissəsidir. DVT müəllimləri DVT bacarıqlarını nümayiş etdirmək üçün necə bir rol modeli kimi hərəkət etməyi – məsələn bir fikri necə əsaslandırmaq və ya danışıqlarla konsensusa necə gəlmək və ya açıqlıq yaxud demokratik rəhbərlik kimi DVT adətlərini (qaydalarını) öyrənməlidirlər.

### c) Ziddiyyətli və ya həssas məsələlərlə işləmə

DVT gənc insanların onların özlərinə və onların icmalarına təsir edən real həyat məsələləri barədə fikir və ideyalarını bölüşdürməyi tələb edir. Bu növ məsələlər ziddiyyətli və ya həssas və yaxud eni zamanda hər ikisindən ola bilər. ona görə də DVT müəllimləri gənc insanları özlərinin fikirlərindən fərqli düşüncədə olan digərlərinə hörmət saxlamaqla düşündükləri fikirləri barədə əminliklə danışmağa necə vadar etməyi öyrənməlidirlər. onlar həm də bilməlidirlər ki,

ziddiyyətli məsələlərdə bir müəllim kimi nə zaman öz fikirlərini ifadə etmək və ya etməmək hüquqları vardır.

**d) Sinif otağından kənara çıxaraq icma ilə əlaqələndirmə**

Gənc insanların təhsilində DVT-nin rolu sinif otağının formal məcrasından xeyli kənara çıxır. Onun həm də bütövlükdə məktəbin həyatında və məktəbdən kənarda cəmiyyətin həyatında öz yeri vardır. Gənc insanlar məktəbin işində öz yaşlarına müvafiq olaraq söz demək imkanı əldə etməklə və bu işin müəyyən aspektlərində öhdəlik götürməklə fəal vətəndaşlara çevrilirlər. Onlar həm də məktəb və geniş ictimaiyyət arasında qurulmuş əlaqələr, məsələn, məktəbə və ya kollec şuraları, ictimai tədbirlər və ya kampaniyalar vasitəsi ilə fəal vətəndaş olurlar. Buna görə də DVT üzrə müəllim tədrisinin vacib bir aspekti DVT tədrisinin bu ölçüsünü təşkil edə bilmək üçün müəllimlərə bu bacarığı öyrətməkdir.

## 5. Düşüncə və inkişaf

DVT-nin təbiəti müəllimlərin özünü düşünmək və inkişaf etdirmə bacarığını tələb edir:

**a) Fərdi inkişaf**

Özünü tənqid etmək və fasilə etmək, təcrübə və praktikanı nəzərə almaq və ondan nəticə çıxarmaq ehtiyacı müəllimlərə aşılanmalıdır. Xüsusən də DVT üzrə özünütənqid müəllimlərin öz dəyərləri və adətləri barədə məlumatlı olmalarını və bu dəyərlərlə onların DVT tədris və öyrənmə yanaşmaları arasında uzlaşmanın olmasını ehtiva edir. Xaricdən və ya həmkarın köməyi bu prosesi asanlaşdıra bilər.

**b) Peşəkar inkişaf**

DVT-nin dinamik təbiətini nəzərə alaraq və DVT-nin tələbələr üçün münasib olmasını təmin etmək məqsədi ilə səriştələrin mütəmadi yenilənməsi və təzələnməsi tələb olunur, xüsusən də DVT ilə bağlı bilikləri, eləcə də öyrətmə və öyrənmə yanaşmalarını.

**c) Əməkdaşlıq**

Əməkdaşlıq fəaliyyəti ilə məşğul olmaq yəni başqaları, xüsusən də həmkar müəllimlər və digər praktikantlar ilə işləmək və öyrənmək müəllimlərin fərdi və peşəkar inkişafına, eləcə də onların DVT təcrübəsinin təkmilləşdirilməsinə öz töhfəsini verir. Məktəb daxilində komanda işi, DVT ilə bağlı peşəkar assosiasiyada üzvlük, yerli, milli və ya beynəlxalq səviyyələrdə şəbəkələr, Avropa və beynəlxalq layihələr və mübadilələr bu cür əməkdaşlığa olan nümunələrdir.

**d) DVT-nin məktəbdə özünü qiymətləndirməsi**

Keyfiyyətin təmin edilməsinin birinci addımı kimi müəllimlərin məktəbin DVT üzrə məqsədlərinin müəyyən edilməsinə öz töhfələrini vermələri və məktəbin bu məqsədlərə uyğun olaraq DVT üzrə işinin məhsuldarlığını, güclü və zəif tərəflərini yoxlamaq qabiliyyətinə malik olmaları tələb olunur. Bura DVT-də qiymətləndirici alətin istifadə edilməsi və keyfiyyət göstəriciləri kimi qiymətləndirmə mədəniyyətinin inkişafı və qiymətləndirmə bacarıqlarının əldə edilməsi daxildir – baxın *DVT-nin məktəblərdə keyfiyyətinin təmin edilməsi üçün alət* (Alət 4).

**e) DVT üzrə məktəbin inkişafının planlaşdırılması**

Keyfiyyətin təmin edilməsi prosesinin bir əsası kimi müəllimlərə dəyişə bilmək imkanı yaradılmalıdır. Bu, müəllimlərin bütövlükdə məktəbdə DVT-nin inkişafına onların verdikləri töhfənin dəyərinə inanmalarını və buna nail olmaq üçün təkliflər hazırlamaq qabiliyyətini, məsələn: DVT-də özünüqiymətləndirmə nəticələrini istifadə edə bilmək, xarici qiymətləndirmələri nəzərə almaq (təftiş hesabatları və milli yoxlama nəticələri kimi), təkmilləşdirmə ehtiyaclarını müəyyən etmək (müəllim tədrisi kimi), təkmilləşdirmə addımlarını və variantlarını nəzərdən keçirmə və məktəbdə inkişaf planları.

Demokratik vətəndaşlıq üçün tədris və insan hüquqları üzrə təhsilə həsr olunmuş xüsusi maraqlı tədbirlərə dair çoxsaylı maraqlı təcrübələr vardır. Aşağıda Bosniya və Herseqovinanın Banja Luka şəhərində Uşaq Hüquqları Günü barədə təqdim edilən hadisə təhlili bu qəbildən olan bir tədbiri təsvir edir.

ŞİKİL

Banja Lukada ibtidai məktəbdən olan bir şagird özünün DVT sinfindən olan işini Avropa Şurasından olan ziyarətçilərə təqdim edir. Bu şəkil 20 noyabr 2003-cü il tarixdə Uşaq Hüquqları Günündə Bosniya və Herseqovinanın Banja Luka şəhərində çəkilmişdir. Banja Luka ətrafında bir neçə ibtidai məktəblərdən olan müəllimlər və tələbələr 1-9 arası qiymətlərlə uşaq hüquqları üzrə tələbənin işini göstərilməsini təsbit etmək üçün əməkdaşlıq etmişlər. Tələbə öz işinin nəticələrini mükəmməl ingilis dilində izah edir və öz dinləyicilərini necə diqqətdə saxlamağı bilir (səriştələr və bacarıqlar). O, bu sahədə bir ekspertdir (biliklər və dərk etmə). Bu təcrübənin onun özünüqiymətləndirməsinə əlavə edildiyini güman etmək olar.

Bu misal fəal vətəndaşlığın məktəbdə necə praktika və təcrübədən keçirilə biləcəyini göstərir: sinif otağında öz mövqeyini belə güclü şəkildə ortaya qoya bilən bir tələbə həm də cəmiyyətdə öz fikrini ifadə etmək hüququnu həyata keçirəcəkdir. O, həm də DVT-nin az maddi resurslar tələb etdiyini və onun hər bir məktəbdə və hər bir ölkədə həyata keçirilə biləcəyini göstərir. Uşaqların və insanların hüquqlarının öyrədilməsi DVT-nin ayrılmaz bir hissəsidir. Bu misal Avropa Şurasının uşaq hüquqlarının tədrisi dərsliyinə əsaslanır [7].

[7] Rolf Gollob/Peter Krapf, Uşaq Hüquqlarının Araşdırılması Bosniya və Herseqovinada İbtidai Məktəblər üçün Dərs Ardıcıllıqları. Strasburq 2004.

# FƏSİL 4

# PROSESLƏR VƏ METODLAR

DVT təlimi üçün lazım olan bütün səriştələri təsvir etdikdən sonra biz bu fəsildə fəaliyyətə başlamazdan əvvəl və fəaliyyət zamanı müəllim tədrisi üçün bu səriştələri inkişaf etdirən proseslərə və metodlara qayıdırıq. Biz həm də DVT təlimçilərinin təlimi üçün tələb olunan proses və metodları nəzərdən keçiririk.

Bunu etməklə biz bəzi ölkələrdə **maliyyə vəziyyətinin** müəllimləri tədrisi üçün lazım olan vaxtın müddətinə və əldə olan resursların ayrılmasına ciddi hədlər qoyur. Bunu nəzərə almaqla biz DVT üzrə müəllim təliminə öz effektivliyinə görə hər hansı bir əldə olan resurs səviyyəsindən asılı olmayan, ancaq resurslarla necə təmin olunursa olsun bir çox tədris vəziyyətlərində istifadə edilə biləcək ümumi plan təklif edən bir yanaşma müəyyən etməyə çalışdıq.

DVT tədrisinin həyata keçirilməsi üçün əsas tələb olunan DVT təlimində özlərinin səriştələrini qarşılıqlı şəraitdə artırmaq istəyən müəllimlər qrupudur. Adətən bir ekspert təlimçi və ya təlimçilər tələb olunur, amma ən sonda əgər burada təsvir olunan prinsiplərə riayət olunarsa öz-özlərinə yardım edən birlikdə işləyən müəllimlər və ya bir-birlərinə dəstək verən qruplar tərəfindən çox şeyə nail oluna bilər.

Biz harada həyata keçirilərsə orada DVT üzrə müəllim tədrisində tətbiq oluna biləcək bəzi ümumi xüsusiyyətləri müəyyən etməklə başlayırıq.

## 1. DVT üzrə müəllim tədrisinin xüsusiyyətləri

Müəllimlərin təlim alma forması onların öyrətmək üçün təlim gördükləri formadan (üsuldan) ayrıla bilməz.

DVT-nin məqsədi demokratiyada insanları həyatda fəal vətəndaşlar olmağa hazırlamaqdır. Bura bilik və dərk etmə, səriştə və bacarıqlar, dəyərlər və adətlər kimi müxtəlif öyrənmə növlərini ehtiva etsə də onun ümumi diqqəti öyrənənlərdə **demokratik vətəndaşlar kimi hərəkət etməyə** meyl yaratmaqdır. O, öyrənənlərin özlərinin real həyat məsələlərinə əsaslanır və onlardan doğur və onları öz həmfikirləri və digər vətəndaşlarla cəmiyyətdə, onların məktəblərində, onların icmalarında və daha geniş dünyada həyatın keyfiyyətinə təsir göstərən məsələləri həll etmək və onlar barədə qərar vermək məqsədi ilə birlikdə danışmağa və işləməyə həvəsləndirir.

Effektiv olması üçün müəllimlərin DVT üzrə tədrisi (həm də müəllim təlimçilər) bu ümumi məqsədi və onun ehtiva etdiyi öyrənmə növlərini təsvir etməlidir. DVT üzrə müəllim tədrisinin məzmunu buna görə də yalnız fənn biliyi – sosial, siyasi, mədəni və iqtisadi – ilə məhdudlaşdırıla bilməz. Və yaxud da bu proses mühazirə kimi formal təlim metodları ilə məhdudlaşdırıla bilməz. DVT üzrə tədrisdə fənn biliyinin və formal təlim metodlarının əhəmiyyətli yeri olsa da tələbələrin **cəmiyyətin fəal, məlumatlı və məsuliyyətli** vətəndaşların kimi inkişafına və onun dəstəklənməsinə diqqət yetirən müəllim tədrisinə olan ayrıca yanaşma yaratmaq məqsədi ilə onlar müəllim biliklərinin və öyrətmə metodlarının digər formaları ilə paralel olmalı və onlara inteqrasiya etməlidir.

Bu ayrıca yanaşmada üç əsas prinsip mühümdür:

- **Fəal vətəndaşlıq ən yaxşı etməklə öyrənilir, göstərmək vasitəsilə yox–** fərdlərə demokratik vətəndaşlıq və insan hüquqları məsələlərini özlərinin araşdırmalarına imkan yaradılmalıdır, onlara necə düşünməli və ya davranmalı olduqları deyilməməlidir.
- **Fəal vətəndaşlıq üçün təhsil sadəcə faktiki biliklərin qəbul edilməsi haqqında deyil –** əksinə bu praktiki qavrayış, səriştə və bacarıqlar, dəyərlər və adətlər barədədir.
- **Mühit mesajdır –** Tələbələr demokratik vətəndaşlıq barəsində formal təlimdən öyrənə bildiklərindən daha çox müəllimlərin gətirdikləri misallar və məktəb həyatının təşkil olunduğu formadan öyrənirlər.

Bu prinsiplərin DVT-də tədris prosesi üçün bir neçə vacib mənası vardır yəni:

**a) Fəal öyrənmə**

DVT üzrə müəllim tədrisi fəal öyrənməni vurğulamalıdır. Fəal öyrənmə **bir şeyi etməklə öyrənmədir.** Bu, vəziyyətləri yaşamaqla və başqa birisinin cavabları deməsinin əvəzinə problemləri özünün həll etməsi yolu ilə öyrənmədir. Fəal öyrənməyə bəzən "təcrübəyə əsaslanan (empirik)" öyrənmə də deyirlər.

Fəal öyrənmə DVT üzrə müəllim tədrisində vacibdir, çünki vətəndaş olmaq praktiki bir fəaliyyətdir. İnsanlar demokratiya və insan hüquqları barədə sadəcə onlar barədə danışmaqla deyir, onları həyata keçirməklə öyrənirlər. Formal təhsildə bu təcrübə sinif otağında başlayır, amma məktəb və ya kollecin xarakteri və mədəniyyəti vasitəsilə davam edir. Ona bəzi hallarda demokratiya *vasitəsilə* və ya insan hüquqları *vasitəsilə* öyrətmə deyilir.

Əhəmiyyətli formalarla müəllimlər bu öyrənənlər üçün təcrübəni özlərinin fəal öyrənmə vasitəsilə əldə etdikləri təcrübənin köməyi ilə yarada bilərlər.

Fəal öyrənmə həm də formal təlimdən daha çox stimullaşdırıcı və həvəsləndirici öyrənmə forması ola bilər və həm böyüklər, həm də gənclər üçün daha uzunmüddətli təsiri olan öyrənmə təmin edə bilər, çünki bu zaman öyrənənlərin özləri şəxsən prosesdə iştirak edirlər. O, həm də öyrənməyə kömək edir, çünki abstrakt prinsiplərdən daha çox konkret misallara diqqət yetirir. Fəal öyrənmədə öyrənənlər konkret hallardan ümumi prinsiplər çıxarmağa dəvət edilir, əksinə yox, yəni hüquqlar konsepsiyası barədə abstrakt müzakirə əvəzinə məktəbdə xüsusi "hüquqlar" məsələsindən müxtəlif hüquqlar tipinin nəzərə alınması, məsələn məktəb qaydaları və ya davranış məcəllələri.

**b) Tapşırıqlara əsaslanan fəaliyyətlər**

DVT üzrə müəllim tədrisi müəllimlərin öyrətdikləri **DVT proqramları kursunda özlərinin həyata keçirməli olduğu tapşırıqlar** üzərində əsaslanmalıdır, məsələn dərslərin planlaşdırılması, layihələrin hazırlanması, insan hüquqları gününün təşkili, tələbələrin öyrənmələrinin qiymətləndirilməsi, tələbə parlamentlərinin təsis edilməsi və s. Avropa Şurasının uşaq hüquqları dərsliyi tapşırıqlara əsaslanan öyrənmənin prinsiplərinə əsaslanır və müəllimlərin tədrisi də eynisini etməlidir [8].

[8] Peter Krapf / Rolf Gollob, *Uşaq Hüquqlarının Araşdırılması: Bosniya və Herseqovinada İbtidai Məktəblər üçün Dərs Ardıcıllıqları,* Strasburq, 2000.

Tapşırıqlara əsaslanan öyrənmə bir çox səbəblər üzündən əhəmiyyətlidir:

- Bu fəal öyrənmənin əla bir formasıdır yəni etməklə öyrənmə deməkdir
- O, təlim seminarları üçün struktur müəyyən edir: iştirakçılar seminarın sonunda işləmək üçün bir tapşırıqla ayrılırlar və növbəti seminarda onu təqdim edirlər
- O, təlim üçün ayrılan vaxtı maksimumlaşdırır, çünki müəllimlər onsuz da etməli olduqları tapşırıqlar üzərində işləyirlər
- O, həll edilmək üçün real həyat problemləri və təhlil üçün həqiqi materiallar təqdim edir
- O, təlimi daha mənalı və bununla da daha stimullaşdırıcı edir
- O, müəllimlər sahibçilik və nailiyyət hissi bəxş edir.

**c) Uyğunluq**

DVT-də tədris fəaliyyətləri **real həyat və gündəlik təcrübədən –** cinayət, münaqişə, səhiyyə, ətraf mühit kimi müəllimləri və onların tələbələrini narahat edən məsələlərdən doğmalıdır.

Bu vacibdir, çünki

- DVT müəllimi gənc insanları onlara vətəndaş kimi fəaliyyət göstərməyə imkan verən tədbirlərdə iştirak etməyə cəlb edə bilməlidirlər.
- DVT müəllimləri gündəmdə olan və cari məsələlərə özlərinin şəxsi maraqlarını və qavrayışlarını inkişaf etdirməkdə fəal olmalıdırlar – özlərinin fikirlərini sinif otağında təşviq etmək məqsədi ilə deyil, bu xarakterli məsələlərə və işlərə öyrənənlərin cəlb edilməsi və demokratik vətəndaşların özlərinin iştirak etmələrinin vacib olduğunu nümayiş etməkdir.

**d) Qrup işi**

DVT üzrə təlim alan müəllimlər bir çox müxtəlif formalarda, məsələn cütlüklər, kiçik qruplar, böyük qruplar və/və ya həmfikirləri dəstək qrupları kimi **öyrənmənin əməkdaşlıq (kollaborativ) formalarını** vurğulamalıdır.

Qruplarda işləmək vacibdir, çünki:

- O, müəllimlərə onların sinif otaqlarında öyrənənlər üçün tətbiq edə biləcəyi kollaborativ qrup işinin modellərini verir;
- O, müəllimləri öz təcrübələrini və fikirlərini mübadilə etməyə həvəsləndirir və onların problemlərini bölüşməklə onların həll edilmə şansının artırılmasına kömək edir;
- O, sinif otağında tək dayanma təcrübəsinə qarşı özünü kontr-balans kimi aparır.

**e) İnteraktiv metodlar**

DVT üzrə müəllim tədrisi **müzakirələr və debatlar** kimi interaktiv metodlara diqqət yetirməlidir. İnteraktiv metodlar əhəmiyyətlidir, çünki:

- Onlar müəllimlərə interaktiv metodlardan öz tədris proseslərində necə istifadə etməyi öyrənməyə kömək edir
- Bu, müəllimləri öz təlimlərində fəal iştirakçı olmağa həvəsləndirmə yoludur.

**f) Tənqidi düşüncə**

DVT üzrə tədris müəllimləri təlimçilərdən alınan “hazır” cavablarla təmin etmək əvəzinə **DVT məsələləri barədə özlərinin düşünməsinə** çağırır. Bu vacibdir, çünki:

- O, müəllimlərə demokratik vətəndaşlığın vacib bir atributu kimi öyrənənlərə özlərinin düşünmələrinə necə kömək etməyi öyrənməyə kömək edir.
- O, onlara sahibçilik və səlahiyyət hissələri bəxş edir: onlar DVT-nin tədrisi və özlərinin peşəkar inkişafı üçün məsuliyyətli olmaq hissini təlqin edir.

**g) İştirak**

DVT üzrə tədris müəllimlərə **tədris prosesinə öz töhfələrini vermək imkanları** yaratmalıdır. Mümkün olduğu qədər çox onlar tədris zamanı passiv bilik resipiyentlərindən daha çox aktiv olmağa həvəsləndirilməlidir, məsələn: onların üzərində işləmək istədikləri tapşırıqları seçməklə, onların özlərinin güclü və zəif tərəflərini, özlərini təkmilləşdirə bilmək üçün hədəflərin müəyyən edilməsi.

İştirak elementi vacibdir, çünki:

- O, müəllimlərə özlərinin DVT Proqramlarına tələbələrin iştirakını necə daxil etməyi öyrənməyə kömək edir
- O, onlara səlahiyyətlər verir və sahibçilik hissi bəxş edir
- O, onları daha məsuliyyətli olmağa və özünü idarəetməyə çağırır, xüsusən də bu DVT tədrisi və dəstəyi almaq imkanının məhdud olduğu yerlərdə çox vacibdir.

DVT üzrə müəllim tədris belə olmalıdır:

- **aktiv –** bir şeyi etməklə öyrənməyə diqqət yetirən
- **tapşırıqlara əsaslanan** –Aktual DVT tədrisi tapşırıqları ətrafında qurulmuş
- **müvafiq** –real həyat vəziyyətlərinə diqqət yetirən
- **kollaborativ** –qrup işini və kooperativ öyrənməni ehtiva edən
- **interaktiv** –müzakirə və debatlardan istifadə edən
- **tənqidi** –müəllimləri özləri üçün düşünməyə çağıran
- **iştirakçı –**müəllimlərə tədris prosesinə öz töhfələrinə verməyə imkan verən.

## 2. Tədris prosesi

Demokratik Vətəndaşlıq üçün Tədrisdə mərkəzi tədris prosesi 4 əsas elementdən ibarətdir: **modelləmə – işlənmə – tətbiq – təlim**[9].

Bu prosesi öz tədrislərində tətbiq edən və bu barədə məlumatlı olan müəllimlər bu cür qaydada öz tələbələri üçün tədris prosesini necə təşkil etməyi başa düşəcəklər:

### a) Modelləmə

Fəaliyyətə başlamazdan əvvəl və fəaliyyət zamanı tədrisin bütün aspektləri məktəbdə **yaxşı öyrənmə və öyrətmə modeli** rolunu oynaya bilərlər. Modelləmə müəllimləri öyrənənlərin mövqeyinə qoyur. O, onlara DVT-nin nəyi ehtiva etdiyini öyrənənin nəzərindən görməyə və hiss etməyə imkan verir. Tədris məktəbi simulyasiya edə bilməz, amma o, geniş şəkildə tətbiq edilə biləcək yaxşı öyrətmə və yaradıcı öyrənmə modelləri yarada bilər.

İlk növbədə model kimi **tədris seminarı** olmalıdır. Formal təlim üçün yer olmasına baxmayaraq DVT-ni öyrətmə və öyrənmə üsulları yalnız əsasən mühazirələr vasitəsilə öyrədilə bilməz. Bura müzakirələrin idarə edilməsi, tənqidi düşüncənin inkişaf etdirilməsi, layihə işinin qurulması və əyani vəsaitlərdən istifadə edilməsi kimi üsullardan tutmuş dərslərin və iş qrafiklərinin planlaşdırılmasına, demokratik vətəndaşlıq və ya insan hüquqları *ruhunda olan* tədris kimi DVT tədrisinin ümumi prinsiplərinə kimi bir çox öyrətmə və öyrənmə fəaliyyətləri daxildir.

İkincisi, modelləmə təlimçilərin misallar vasitəsi ilə təlim alanlara göstərməli olduqları **fərdi rol modellərinə** də tətbiq edilir. Təlimçilər öz tələbələrinə göstərmək niyyətində olduqları demokratik dəyərlər və adətlərin növlərini modelləşdirməlidirlər, məsələn hörmət, açıqlıq, arqument və debatlar vasitəsilə münaqişələri həll etmək iradəsi.

### b) İşlənmə

Bununla belə effektiv olması üçün modelləmədən sonra **düşünmə vaxtı** və ya "sınaq" müddəti gəlməlidir. Müəllimlərə nə etdikləri və öz tapşırıqlarını yerinə yetirərkən əldə etdikləri təcrübə barədə düşünmək üçün vaxt lazımdır. Onlara öyrəndiklərini müəyyənləşdirmək və bu öyrəndiklərini gələcək vəziyyətlərdə necə tətbiq edə biləcəkləri barədə fikirləşmək üçün vaxt lazımdır. Bu, istifadə olunmuş **modellərin müəyyən edilməsi** və onları əks əlaqə, müzakirə və replikalar üçün açıq etmək deməkdir.

Bu düşünmə müddəti müəllimlərə özlərini az əvvəl iştirak etdikləri fəaliyyətdə nümayiş etdirdikləri ümumi pedaqoji prinsiplərlə tanış olmaq və onların daha dərindən araşdırmaq imkanı verir. O, Göy Qovluqda[10] və uşaq hüquqlarının tədrisi üzrə dərslikdə[11] müəyyən edilmiş praktikada tətbiq olunan DVT prinsiplərindən çoxsaylı nümunələrin gətirilməsi ilə daha da möhkəmləndirilə bilər. O, müəllimlərə öyrəndiklərini başqa vəziyyətlərdə tətbiq etmək üçün ümumiləşdirməyə imkan verir və bununla da tədricən DVT-də faydalı təcrübələrdən ibarət "alətlər qutusunu" yaradır.

[9] Baxın Rolf Qollob və Piter Krapf, İnsan Hüquqları və Mülki Təhsildə Planlaşdırma Elementlərinin və Öyrənmə Metodlarının Xülasəsi, səh. 20, Strasburq, 1998.
[10] Elə həmin yerdə.
[11] Piter Krapf və Rolf Qollob, Uşaq Hüquqlarının Araşdırılması. Strasburq, 2004.

Elə tədris prosesinin bu mərhələsində müəllimlər öyrəndiklərinə dərk etməyə başlayır və təcrübə onlar üçün həqiqətən öyrədici bir şey olmağa başlayır. Bu səbəbdən işlənmə üçün vaxtın ayrılması vacibdir. Tədris prosesinin müddəti nə qədər qısa olursa olsun işlənmə elementi heç zaman buraxılmamalıdır, elə buradan da müəllim tədris üçün ümumi prinsip meydana çıxır: "Az et, amma yaxşı et".

**c) Tətbiq**

Tədris prosesində vacib bir element real həyatda öyrənilmiş şeylərdən faydalanmaqdır. İşlənməyə dərk etmə daxildir və dərk etmə bəzən insanlara nəyisə yadda saxlamağa sadəcə onun necə olduğunu deməkdən daha yaxşı kömək edir. Amma bununla belə uzun müddət ərzində biz yalnız real həyatda faydalandığımız şeyləri xatırlayırıq.

Buna görə də DVT tədrisində üçüncü vacib mərhələ müəllimlərin öyrəndiklərini özlərinin peşəkar fəaliyyətlərinə inkorporasiya etmələridir. Bunu müəllimlər üçün tapşırıqlar müəyyən etməklə etmək olar və ya daha yaxşı olardı ki, müəllimlərin özləri tədris seminarı başa çatdıqdan sonra məktəb və ya kollecdə həyata keçirəcəkləri tapşırıqlarını müəyyən etsinlər, məsələn: hər hansı bir dərsin planlaşdırılması, müəyyən müzakirə və ya qrup işindən istifadə edilməsi. İdeal olaraq "tətbiq" mərhələsində müəyyən edilmiş tapşırıqlar növbəti tədris seminarının başlanğıcını səciyyələndirən bir "məhsula" çevrilir, məsələn: təqdimat və ya nümayiş kimi.

**d) Təlim**

Formal təlim – bu **nəyisə deməkdir –** öyrənmə və öyrətmənin bir forması kimi tədris proses prosesində yardımçı olsa da vacib bir rol oynayır. O, istənilən bir məqamda baş verə bilər, məsələn: müəllimlər məlumat və ya məsləhət istədikdə, müəllimlər təlimçinin nümayiş etdirdiyi modelləmə barədə düşünərkən, müəllimlər sinif otaqlarına qayıtmalarına hazırlıq üçün özlərinin DVT tapşırıqlarını müəyyən etdikləri zaman.

Formal təlim həm də özünü modelləşdirə bilən öyrətmə üsulu və sinif otaqlarında istifadə olunmaqla müəllimlərin tədrisi üçün bir yol kimi qəbul edilə bilər.

## 3. Öyrənmə mühiti

DVT-də müəllim tədrisinə olan bu yanaşma öyrənmənin uğurla baş verə biləcəyi bir mühit tələb edir. Bu, müəllimlərin öz fikirlərini sərbəst şəkildə və utanmadan ifadə edə bildikləri və uğursuzluqdan qorxmadan öz təşəbbüslərindən istifadə edə bildikləri **təhdid edici olmayan** bir mühit tələb edir. Belə bir atmosferin yaradılması inkişaf üçün vaxt tələb edə bilər və tədricən qurulur. O, iştirakçılara tədris zamanı bir-birlərini tanımağa və etibar etməyə kömək edən çalışmaların (bəzən belə çalışmalar "buzqıran" adlanılır) qurulması və tədris prosesində onların özlərinin mövzularını, özlərinin müzakirə suallarını seçmələrinə və öyrənmə üçün öz hədəflərini müəyyən etmələrinə imkan verilməsi yolu ilə onlara sözlərini deməyə imkan yaratmaqla stimullaşdırıla bilər.

## 4. DVT təlimçisinin rolu

DVT təlimçisinin yalnız bir rolu yoxdur, onun **çoxlu rolları** vardır. Bu rollara daxildir: yönəltmə, məlumat vermə, nümayiş etmə; yönəlməni əmr formasında deyil təlimat verməklə həyata keçirmək; dinləmə, iştirakçının ideyalarına struktur vermə; qərar vermək üçün variantlar təklif etmə; monitorinq; müşahidə etmə; qiymətləndirmə; əks əlaqə qurma; təriflәmə; həvəsləndirmə; icazə vermə; söz alma və başqalarına çıxış üçün söz vermə.

Təcrübəli təlimçilər yalnız bu müxtəlif rolları necə yerinə yetirməyi deyil, həm də onların nə zaman yerinə yetirmək lazım olduğunu bilirlər. Bu, təlimçilərin müəllimlər və onların tələbələri üçün modellər müəyyən edərkən tələb olunan əsas səriştədir. Bu rollar tədris sessiyalarının planlaşdırılması və qurulması zaman fikirdə saxlanılmalıdır ki, müəllimlərinin özlərinin öz tələbələri ilə istifadə etməli olduqları bütün metodların repertuarını modelləşdirə bilsinlər.

**DVT tədrisində didaktik kub**

Fəal vətəndaşlıq konsepsiyası və DVT-nin əsas məqsədləri müəllimlərin DVT üzrə üç ölçülü model formasında necə təlim almalı olduqları məsələsi ilə əlaqələndirilə bilər. Bu modelə daxildir:

- Vətəndaşlığın 4 ölçüsü (siyasi – hüquqi – sosial – iqtisadi)
- DVT-də öyrənmənin 3 elementi (bilik və dərk etmə, səriştə və bacarıqlar, dəyərlər və münasibətlər)
- Müəllim tədrisinin 4 əsas elementi (modelləmə, işlənmə, tətbiq və təlim)

ŞİKİL

## 5. Proseslər və metodlar üzrə hadisə təhlili

Bosniya və Herseqovina daxilindəki Serb Respublikasında fəaliyyətə başlamazdan əvvəl müəllim tədrisi misalı DVT-də müəllim tədrisinin əsas prinsiplərindən bəzilərini təsvir edir. O, həm də **az maddi resurslarla,** amma ən güclü resurs olan müəllimlərin işə can yandırması ilə nəyə nail olmaq mümkün olduğunu göstərir.

**Layihə**

Layihə Avropa Şurası və Banja Lukadakı pedaqoji institut arasında bir əməkdaşlıq tədbiri idi və Avropa Birliyi ilə Avropa Şurasının Bosniya və Herseqovina üçün Birgə Proqramı tərəfindən maliyyələşdirilirdi.

Maliyyə il yarım ərzində ilkin beşgünlük və sonradan dörd ikigünlük seminarın keçirilməsi üçün kifayət edirdi.

Məqsəd uşaq hüquqlarının tədrisinə yeni yanaşmanın inkişaf etdirilməsi idi. Uşaq bağçasının sonuncu ilindən (1-ci sinif) 9-cu sinfə kimi, yəni ibtidai məktəbin aşağısını və yuxarısını əhatə edən hər il ərzində keçiriləcək dörd dərsin ardıcıllığı planlaşdırıldı. Dərslər sinif müəllimləri tərəfindən öz siniflərində həftədə bir dəfə keçirilməli idi. bu qısa 4 dərs tapşırıqlara əsaslanan olmalı və yekun bir məhsula gətirilə biləcək qısa layihələr kimi tərtib edilməli idi.

Uşaq hüquqlarının tədrisi üçün dərslik hazırlandı (yenidən nəzərdən keçirilmiş versiyası[12]). Dərslikdə olan tədbirlər və tədris seminarları az xərc tələb edən şəkildə tərtib olunmuşdur, heç bir bahalı material və ya avadanlıq tələb olunmurdu. Seminarları başlamazdan əvvəl seminar gələn müəllimlərə şərh etmələri üçün dərsliyin layihə versiyası təqdim edilirdi.

**“Bir-birinə dəstək” qruplarının yaradılması**

Ən vacib resurslar elə müəllimləri n özləri idi. **Müəllimlər özlərini yerli və regional səviyyələrdə “bir-birinə dəstək” qruplarında formalaşdırdılar.** Bu bir-birinə dəstək qrupları layihənin əsas hissəsini təşkil edirdi. Onlar tədris seminarlarına struktur verməli və əldə olan vaxtdan ən səmərəli şəkildə istifadə etməli və məsuliyyətin təlimçilərdən müəllimlərə və məktəblərə ötürülməsi prosesinin ayrılmaz bir hissəsi olmalı idi. Kursun müvafiq şəkildə keçiriləcəyi təqdirdə bəzi iştirakçı müəllimlərin özlərinin müəllim-təlimçi olmaları üçün əlavə tədris almağa yararlı olacağı və beləliklə də Bosniya və Herseqovinada DVT üzrə müəllim təliminə dəstək vermək üçün davamlı strukturların inkişafına töhfə verəcəkləri gözlənilirdi.

**Məktəbə əsaslanan layihələr**

Layihə **tapşırıqlara əsaslanan öyrənmə və qrup işi** prinsiplərinə əsaslanırdı. Müxtəlif qruplar bir tədbirə - Banja Lukada Uşaqlar Gününə inteqrasiya olunacaq müxtəlif məktəb əsaslı layihələr üzərində işləyirdilər. hər bir ayrı sinif öz töhfəsini verirdi, məsələn: plakatların, sənət işlərinin, rəsmlərin və s. sərgisi.

Qruplara birinci seminar zamanı öz tapşırıqları ayrılmışdı. Hər bir növbəti seminar qrupların töhfəsi ilə başlayırdı. Qrupların sonradan öz məktəblərinə geri götürmək üçün sonrakı tədbirlərin planlaşdırılması üçün vaxta ehtiyacları olduğunu görə bu, hər bir seminarda təlimçilər yeni töhfələr vermək üçün

[12] Piter Krapf və Rolf Qollob, Uşaq Hüquqlarının Araşdırılması. Strasburq, 2004.

vaxtlarının yarısını alırdı və bununla da tapşırıqlara əsaslanan və kollaborativ öyrənmənin təlimçilər tərəfindən necə diqqətli planlaşdırmanı tələb etdiyi göstərilirdi.

**Gerb çalışması**

Birinci seminarda müəllimlərin fəaliyyəti qruplarda işləyərək gerb portretini yaradırlar. Hər bir qrup üzvü gələcək üçün arzularını və bölüşmək istədikləri şəxsi təcrübə növlərini çatdırmaqdan ötrü rəsm və simvollardan istifadə edərək gerbin bir hissəsini yaradır (*Müəllimlərin qrup işi* şəklinə baxın). Qrup üzvləri özlərinin gerblərini seminar iştirakçılarına yeni layihə üzərində işləyən şəxslər qismində bir-birlərini tanımaq yolu kimi təqdim edirlər.

Gerb çalışması yalnız iştirakçıların bir-birlərini tanımaq vasitəsi kimi deyil, eyni zamanda həm də DVT-də bir öyrənmə və öyrətmə **modeli** kimi həyata keçirilir. İlk növbədə o, Göy Qovluqda[13] "buzqıran" kimi tanınan öyrətmə metodunu nümayiş etmişdir. O, eyni zamanda müxtəlif növ öyrətmə metodlarının və qruplaşmaların plenar dəyirmi masalar, qrup işi, fərdi iş, təqdimatlar və təlimçilərin sonrakı mühazirələrindən istifadə etməklə bir fəaliyyətə necə gətirməyi nümayiş edir.

Çalışma müəllimlərə seminar iştirakçılarını başlanğıcdan necə işə cəlb etməyi və onlara bütövlükdə qrupla öz fikirlərini və təcrübələrini bölüşmələri üçün necə imkanların yaradılmasını nümayiş etdirdi. O, xüsusən də iştirakçılar tərəfindən yaradılan və onların sahibçilik hissi keçirdiyi orijinal materialdan istifadə etdi və iştirakçıların töhfələrinə necə diqqət yetirməyi və ciddi nəzərə almağını göstərdi. Bu yolla gerb çalışması müəllimlərə insan hüquqları vasitəsilə öyrətmənin insan hüquqları təhsilinin mühüm bir hissəsi olduğunu dərk etməyə yardım etdi və onlara bunun necə edilə biləcəyinin modelini verdi. O, həm də onlara təlimçinin və eləcə də müəllimin DVT-də oynaya biləcəyi müxtəlif rolları görməyə kömək etdi.

Vacib olan odur ki, iştirakçılar etməklə onlara riayət etmək üçün verilən qaydalar vasitəsilə deyil **real təcrübə vasitəsilə -** nəyisə etməklə öyrəndilər,

**Modellərin nümayiş etdirilməsi**

Bu seminar proqramının həyata keçirilməsinin məqsədi müəllimlərə uşaq hüquqlarının öyrənilməsi və onların sinif otağında tətbiq edə biləcəyi öyrətmə modelləri ilə təchiz etmək idi. buraya Göy Qovluqdan seçilən və hətta bəzilərinin uşaq hüquqları dərsliyində göstərildiyi çalışmalardan seçimlər edilməsi də daxil idi. Modellər DVT öyrənmə və öyrətməsinin dörd müxtəlif ölçülərinə tətbiq edilirdi:

- **Proseslər –**interaktiv öyrətmə, layihə işi, müzakirələr və əks əlaqə kimi metodlar;
- **Məhsullar –**model dərslər və ya müəllimlər tərəfindən elə seminarın özündə keçilən yaxud yerli məktəblərdə müşahidə edilən dərslərin müəyyən hissəsi və gənc insanların işlərinin nümunələri, məsələn: rəsm, xəzinə qutuları və portretlər[14], modellərin praktikada tətbiq edilməsinin nümayiş etdirilməsi;
- **Prinsiplər –** insan hüquqları *vasitəsilə* öyrətmə, nümunələrlə öyrətmə, modelin işlənmə və tətbiq edilmə sikli, formal təlimin rolu kimi;

[13] Demokratik Vətəndaşlıq üçün Təlim, Çalışma 1.3, İdentifikasiya Gerbləri.
[14] *Uşaq Hüquqlarının Araşdırılmasına baxın,* Siniflər 4, 6, and 8; Gollob / Krapf, op. cit., 2004.

• **Şəxsiyyətlər –** təlimçilərinin özlərinin sosial təmas vasitəsilə yəni digər fikirlərə və baxışlara qulaq asmağın və onlara hörmət etməyin vacibliyi kimi verilən mesajlar və müəllimin şəxsiyyəti DVT-nin prinsipləri ilə uyğun olmalıdır, məsələn: əgər dərs demokratiya barədədirsə, amma müəllim dərsi avtoritar qaydada qurursa, bu zaman öyrənənlər ona inanmayacaqlar.

Praktikada modelləmənin bu müxtəlif növləri paralel olaraq həyata keçirilirdi. Yalnız sonradan olan rəy öyrənmə sessiyaları ayrıca müəyyən edilir və müzakirə edilirdi.

**Öyrənməni açıq etmə**

Seminarlar zamanı təlimçilər öyrənməni açıq etməkdən ötrü (tədrisin **işlənmə** mərhələsi ) müəllimlərə onların uşaq hüquqları barədə nə öyrəndiklərini xülasə etmək imkanı verilirdi.

Bu, iki yolla həyata keçirilirdi: **formal təlim** və iştirakçıları nə öyrəndikləri barədə **düşünməyə** və düşüncələri bölüşdürməyə həvəsləndirmək üçün nəzərdə tutulan tədbirlər vasitəsilə.

Təlimçilər onların istifadə etdikləri müxtəlif metodları və qrupları və onlardan niyə istifadə edildiyini izah edirdilər. Bu proses bəzən **“meta-öyrətmə”** adlanır, yəni nə barədə və necə öyrətmək və hansı məqsədlə.

Onlar həm də iştirakçılara seminarda nə etdikləri və modelləşdirdikləri barədə evə qayıtdıqdan sonra deyil, seminarın özünün əhəmiyyətli bir hissəsi kimi elə seminar zamanı düşünməyə şərait yaradırdılar. Sadəcə töhfə verməyin özü öyrənməyə doğru aparmır. Öyrənənlər hansı səviyyədə olmasından asılı olmayaraq yeni məlumat parçalarını, kateqoriyaları və təcrübələri indiyə qədər öyrəndiklərinə inkorporasiya (daxil) etməlidirlər. bu çox şəxsi və fərdi bir prosesdir və vaxt tələb edir. O, həm də monitorinq olunmalı və dəstəklənməli və lazım olarsa ona düzəlişlər edilməlidir.

Tapşırıqlar müəllimlərə öyrəndikləri, o cümlədən növbəti seminar üçün **təqdimatlar, plenar qruplarda nümayişlər, mütaliə və planlaşdırma** barədə düşünməyə və onları qəbul etməyə kömək edən şəkildə ayrılmışdı. Müəllimlər həm də uşaq hüquqları dərsliyinin layihə versiyasının yenidən nəzərdən keçirməsi yalnız dərsliyin praktiki dəyərini artırmaq deyil, həm də iştirakçılara seminara verdikləri töhfə barədə düşünmək imkanı yaratmaq məqsədi güdürdü.

Müəllimləri öyrəndiklərini işləmək (təhlil etmək) üçün həvəsləndirən praktiki və faydalı başqa bir yol isə onlardan özlərinin bir tələbə kimi öyrəndiklərini öz tələbələrinin başa düşə biləcəyi bir formada **yenidən təqdim etmələrinin** xahiş edilməsi idi. Yeniyetmələr və böyüklər üçün DVT tədrisinin  eyni prinsiplərə riayət etməsinə baxmayaraq, böyüklər üçün nəzərdə tutulmuş tədrisi məktəb sinfində istifadə etməyə çevirən zaman bir çox adaptasiyalar edilməlidir. Nəyin köçürüləcəyi və nəyin dəyişiləcəyi barədə qərar qəbul etmə prosesi müəllimlərin təlimi metodunda çox güclü bir stimuldur.

**Öyrənilənlərin tətbiq edilməsi**

Təlim seminarları uşaq hüquqları dərsliyində qeyd olunan eyni prinsipləri rəhbər tuturdu. Müəllimlər hər zaman seminarları vaxta uyğun inteqrasiya edilmiş bir **tapşırıqla** tərk edirdilər – onların özlərinin müəyyən etdiyi tapşırıqlarla, təlimçilərin deyil.

Tapşırıqlara daxil idi: uşaq hüquqları dərsliyinin təklif etdiyi dərslərin əlavə olaraq oxunması, planlaşdırılması və deyilməsi; digər həmkarlarla, məktəb pedaqoqları və baş müəllimlərlə işləmə; daha çox müəllimin tədris prosesinə gətirilməsi üçün model dərslərin çatdırılması.

Uşaq hüquqları dərsliyi bu tapşırıqların birlikdə tək bir yekun tədbirlə - Uşaq Hüquqları Günü ilə əlaqələndirilməsi yolunu təklif edirdi. Ona görə də müəllimlər hər bir kəsin 20 noyabr 2003-cü ildə Banja Lukada keçirilən ümumi tədbir üçün işə qatılmasını təmin etməkdən ötrü fərdi sinif layihələrini koordinasiya edə bildilər.

Tapşırıqlara əsaslanan yanaşmadan istifadə edilməsi seminarın birinci hissəsinin hər zaman iştirakçılara verilməsi demək idi. Onlar sərgilər təşkil edir, təqdimatlar verir və müzakirələr aparırdılar. Təlimçilər onlara qarşı reaksiya verir və tərifləyir, müəllimin işini qəbul edir, həm də lazım gələndə tənqid edirdi. Seminarın ikinci hissəsi yeni fikirlər, yeni metodlar vasitəsilə iştirakçıları daha yüksək səviyyəyə qaldıran təlimçilərin verdikləri töhfələrdən ibarət idi. Seminarın üçüncü hissəsi tapşırıqların müəyyən edilməsi və planlaşdırılması və beləliklə də müəllimləri seminardan çıxarmaq və onların sinif otağındakı işi arasında körpü qurmaq vasitəsilə öyrənilənlərin işlənməsi üçün ayrılmışdı.

## 6. Təlimçilərin təlimi

Müəllimlərin özünü təhsil və ya digərləri ilə birlikdə təhsil vasitəsilə təhsillərini artıra biləcəyi yalnız bir neçə DVT vardır. Milli və ya regional DVT tədris proqramının uğuru əhəmiyyətli dərəcədə **ekspert təlimçilər qrupunun** mövcudluğundan asılıdır.

Fəslin bu bölməsində biz xüsusi olaraq universitet və ya kollec müəllimləri, pedaqoji məsləhətçilər, məktəb müəllimləri, tərbiyəçilər və ya müstəqil təlimçilər və yaxud seminar fasilitatorları olub-olmamasından asılı olmayaraq demokratik vətəndaşlıq üzrə təhsil verəcək şəxslərinə təliminə görə cavabdeh olan şəxslər üçün tələb olunan səriştələrin növünə diqqət yetirəcəyik.

Bir çox hallarda DVT təlimçilərinin təlimi DVT müəllimlərinin təliminə oxşardır. Hər iki halda DVT nəzəriyyəsi barədə yaxşı bilik səviyyəsi və praktika tələb olunur. Təlimçilərin özlərinin DVT tədrisi üzrə təcrübələrinin olması və insanları demokratik vətəndaşlığa və insan hüquqlarına öyrətmək üçün tələb olunan səriştələr növünə malik olmaları gözlənilir.

DVT təlimçilərinin təlimi prosesinin həm də DVT və DVT təliminin təbiətini göstərəcəyi də gözlənilir, yəni ki, o tapşırıqlara əsaslanan olmalı və fəal öyrənmə və real həyat məsələləri ilə bağlı qrup işini ehtiva etməli, eləcə də təlim prosesinə interaktiv, iştirakçı və tənqidi düşüncə yanaşmalarını tətbiq etməlidir.

Bir çox hallarda DVT təlimçilərinin profilləri DVt müəllimələrinin profillərini əks etdirməlidir. Onlar DVT-yə diqqət yetirməli və ona qarşı həvəsli olmalı, dinləmə qabiliyyətinə, empatiyaya və iştirakçıları işə cəlb edən və həvəsləndirən təhdid edici mühit və ya ab-hava yaratmaq qabiliyyətinə malik olmalıdırlar. Onlar həm də öz növbəsində fəal, məlumatlı və məsuliyyətli vətəndaşlar olmalıdırlar.

Bununla belə DVT təlimçilərin təlimi ilə DVT müəllimlərinin təlimləri arasında bir çox **əhəmiyyətli fərqlər** vardır:

- Təlimçinin rolu insanları peşəkar praktikanın spesifik forması üçün hazırlamaq olduğu halda müəllimin rolu gənc insanların ümumi təhsilinə töhfə verməkdir.
- Təlimlər gedən müəllimlərin əksəriyyəti bunu könüllü olaraq etsə də şagirdlər isə məktəbə getməyə borcludurlar.

- Təlim kurslarına gedən müəllimlərin artıq öyrətmə təcrübələri vardır: fəaliyyət zamanı olan tədris halında müəllim kimi işlədiklərinə görə və ilkin müəllim tədris halında isə sinif otaqlarında tələb olaraq öyrəndikləri üçün. Onların öyrənmə və öyrətmə prosesinin nə və necə aparılmalı olduğu barədə fikirləri vardır: həm fərdlər kimi, həm də praktiki müəllimlər üçün onların işlədikləri cəmiyyət və ya adətlər praktikası daxilində.
- Yekun, amma heç də az əhəmiyyət kəsb etməyən fərq isə odur ki, müəllimlər artıq böyükdürlər, amma gənc insanların çoxu hələ də yox [15].

Bu fərqliliklərin həm tələb olunan tədris növü, həm də təlimçinin rolu ilə bağlı öz mənaları vardır:

**a) Operativlik və praktiki faydalılıq**

Müəllimlərin tədris prosesinə cəlb edilmələri üçün motivlərdən biri də onların dərhal müəllimlərin peşəkar praktikasına xas olan vəzifələrə və öhdəliklərə qarşı tətbiq edilmək üçün faydalı olmasıdır. Böyüklərin öyrənilməsi çıx şəkildə şəxsin həyati vəziyyətləri ilə bağlıdır aə böyüklər peşəkar təlimlərin onlara hansısa bir fayda verdiyini görməyincə təlimdə iştirak etməyə meyl etmirlər.

Bu, təlimçilərin müəllimlərin öz rollarını necə gördükləri ilə tanış olmalarının və nəyin onlara öz təcrübələrini inkişaf etməyə kömək edib-etməyəcəyini dərk etmələrinin tələb olunduğu deməkdir. Təlimçilər müxtəlif DVT-nin müxtəlif şəraitlərdə inkişafına yolundakı praktiki çətinliklər və imkanlar, eləcə də bu şəraitlərdə olan müxtəlif praktiki ənənələr barədə məlumatlı olmalıdırlar. Yalnız bundan sonra onlar müəllimlərin duyduqları ehtiyacı nəzərə ala və bunları seminarın planlaşdırılmasına daxil edə bilər.

Bu heç də o demək deyildir ki, təlimçilər özlərinin bütün enerjilərini müəllimlərin təlim üçün olan ehtiyaclarını qarşılamağa yönəltməlidir. Müəllimlərin nəyə ehtiyacları olduqları barədə düşüncələri milli və ya regional DVT inkişaf proqramı nöqteyi-nəzərindən baxdıqda dəqiq şəkildə onların öz ehtiyaclarını başa düşmədikləri görünə bilər və hətta onların istəkləri proqrama zidd ola bilər. Bununla belə  vacib olan odur ki, təlimçilər təlim prosesini necə qəbul edəcəkləri ehtimalını təxmin edə bilsin və təlimi onun işığında qursunlar.

**b) Böyüklərin tədrisi prinsipləri**

Təlimçilərin DVT üzrə təlimində nəyin olmasını nəzərə alan zaman böyüklərin öyrənməsi ilə uşaqların öyrənməsi arasındakı fərqlilikləri nəzərdə saxlamaq vacibdir. Təlimçilərin təlimi karikulumu buna görə də müəllimlərin idarə edilməsi barədə bilikləri və dərs demə modellərini, eləcə də böyüklərin inkişaf psixologiyalarını əks etdirməlidir. Böyüklərin öyrənməsinə iki faktor təsir göstərir: sürət və məna. Böyüklərin reaksiya vermək qabiliyyəti yaş keçdikcə yavaşıyır; vaxt məhdudiyyətləri və təzyiq öyrənmənin məhsuldarlığını mənfi təsir göstərir. Əvvəlcədən qeyd edildiyi kimi böyüklərin öyrənməsi onların həyat vəziyyəti ilə çox sıx bağlı olduğu üçün böyükləri tədrisin onlar üçün mənası olmasa ona meyl etmirlər.

15. Elias, J.L & Merriam, S.B., (1995) Böyüklərin Təhsilinin Fəlsəfi Əsasları, Krieger Pub., Florida.

**c) Özünü ifadə etməyin həvəsləndirilməsi**

DVT üzrə karikulum hazırlanmasında üzləşilən əsas çətinliklərdən biri də şəxsi təcrübədən yeni öyrənməyə keçilmə zamanı maneələrin dəf edilməsidir. Müəllimlərin müəllim və ya tələb kimi təhsil təcrübəsi bəzi hallarda əski dərk etmə və praktika formalarını öyrənmə və onlara etibar etmə kimi mənfi münasibətlərə apara bilər. Xüsusilə də bu, DVT sahəsində daha xarakterikdir. DVT-də interaktiv və demokratik öyrənmə və öyrətmə metodlarına diqqət yetirilməsi sinif otaqlarında daha çox ənənəvi, avtoritar yanaşma ilə ziddiyyət təşkil edir. Bunun nəticəsində DVT üzrə dərs deməyi öyrənmək bəzi öyrənilmiş şeylərin yaddan çıxarılmasını da tələb edir.

Bununla belə köhnə yolların yaddan çıxarılması və yenilərinin öyrənilməsinə sadəcə intellektual arqumentlə nail olmaq olmaz. İnsanlar adətən öz ideyalarını o zaman dəyişirlər ki, onlar bu ideyaları həyata keçirmək üçün bir vəziyyətə düşsünlər, sadəcə onlar barədə mübahisə etməklə deyil; eləcə də onların nəzərdə tutduqları fərziyyələrin açıq-aydın şəkildə özünü göstərdikləri yerdə.

DVT təlimçiləri buna görə də təlim alanların öyrənməyə olan, xüsusilə də DVT öyrənməsinə olan və öz təcrübələrində əsaslandıqları mümkün münasibət formaları barədə məlumatlı olmalıdır. Cəmiyyət artıq çoxmədəniyyətli və müxtəlif olmuşdur və siyasi və iqtisadi şəraitlər çox zaman öyrənmə təcrübəsinə təsir göstərir. Təlimçilər öyrənənlərin həm fərdlər, həm də təcrübə ənənələrinin üzvləri kimi həyat tarixçəsini və təcrübələrini bilməlidirlər.

“Bu cür bilik formasının inkişaf etdirilməsi üçün vacib bir yol şəxsi və peşəkar yöndə özünü ifadə etmə elementinin tədris prosesinə daxil edilməsidir. Təlimçilər təlim alanların özlərinin əvvəlki inanclarına və fərziyyələrinə uyğun olaraq özlərini ifadə etməyə yönəltmək və bunları DVT nəzəriyyəsi və praktikası ilə bağlamaq səriştəsinə malik olmalıdırlar [16]”.

Əsasən üç sahə barədə düşünmə müvafiqdir:

- **Pedaqogika** –öyrənmə və öyrətmənin texniki prosesləri barədə düşüncə, məsələn: DVT-də müxtəlif sorğuların istifadə edilməsi haqqında;
- **Məqsədlər və məramlar** –öyrənənləri DVT-yə öyrətməyin səbəbləri və onların praktiki mənaları barədə düşüncə;
- **Etik, sosial və siyasi** – müəllimlərin DVT-yə olan münasibətlərinin əsaslandığı qəbul edilmiş dəyərlər sistemi barədə düşüncə.

Tənqidi düşüncənin yönəldilməsi uzunmüddətli və mürəkkəb bir prosesdir və bütün DVT tədris prosesinə nüfuz etməlidir. Bununla belə vacib olanlardan biri də təlim alanlara yalnız DVT-də nəyin olduğunu düzgün qiymətləndirməyə kömək etmək barədə deyil, həm də öz fərziyyələrini sual altına alan, etik dilemmaları qəbul edən və alternativ fikirlərə açıq olan müəllimlərin gənc insanları da belə etməyə həvəsləndirdiyi barədə düşünmək lazımdır. Prosesin özünü modelləşdirməklə DVT müəllimləri tələbələrdən tənqidi olaraq düşünməyi xahiş etmək hüququ qazanırlar.

Özünü ifadə etmə tədris prosesinə müxtəlif yollarla daxil edilə bilər:

- **Avtobioqrafiya** – məsələn şəxsi öyrətmə gündəlikləri təkzib etmə və təhrif etmə riskini daşıyır, amma çox zaman yaxşı bir başlanğıc nöqtəsidir;

[16] Brookfield, S. D. (1995). Tənqidi düşünən müəllim olmaq. Jossey-Bass Publishers.

- **Tələbələrin / öyrənənlərin gözləri** –özlərinə tələbələrin və ya təlim alanların gözləri ilə baxan təlimçilər başqa cür mümkün olmayan məlumatları və şərhləri verə bilərlər;
- **Həmkarların təcrübələri** –müəllimlərin hərəkətlərini əks etdirməklə tənqidi güzgü rolunu oynaya bilərlər;
- **Müəllim tədrisi haqqında nəzəri ədəbiyyat** –ümumi fərziyyələrin arxasında nəyin olduğun görməyə müəllimlərə kömək edə bilər və praktika üzrə yeni və müxtəlif perspektivləri verə bilər.

Eyni zamanda təlimçilər üçün öz tələbələri ilə apardıqları idarəetmə və yönəltmə prosesləri barədə öz fərziyyələri və fəlsəfələrini, onların arxasında duran əsas kimi qəbul edilən inanclar və dəyərləri təhlil etmək vacibdir. DVT üzrə təlim hər zaman təlimçinin demokratiyanın və vətəndaşların dəyərlərinə, etik münasibətlərə və davranışlara və demokratik cəmiyyətdə iştirak edən və həyatdan zövq alan bir vətəndaş kimi inanclarından asılıdır.

**d) DVT prinsipləri üzrə düşüncənin təşviqi**

Tədris prosesində mərkəzi yer DVT tədrisinin rəhbər tutduğu prinsipləri açıq etməkdir. Peşəkar təlimçini qeyri-peşəkar təlimçidən fərqləndirən prinsiplər və müəyyən formada hərəkət etməyin səbəbləri barədə məlumatlı olmaqdır.

Buna görə də müəllim təlimçiləri DVT-nin müxtəlif konseptuallaşdırılmasını başa düşməli və onların praktikada necə tətbiq ediləcəyini izah etməlidir. Bu sadəcə biliklərin ötürülməsi məsələsi deyil, həm də təlim alanların DVT təlimini idarə edən prinsiplər barədə düşünmələri üçün vəziyyətlərin yaradılmasıdır, məsələn: fəal və tapşırıqlara əsaslanan öyrənmə, öyrənənlər üçün müvafiq olan real məsələlərə diqqət yetirilməsi.

Bununla belə DVT barəsində müəyyən bərkimiş fikirlərinin olmasına baxmayaraq təlimçilər heç zaman öz fikirlərini və ideyalarını qəbul etməyi təlim alanları vadar etməməlidirlər. Bu yalnız səmərəsiz öyrənmə yolu deyil, həm də demokratik vətəndaşlığın ruhuna ziddir. Təlimçilərin təlim alanlara DVT-ni necə tədris etməyi öyrətmək vəzifəsi ilə yanaşı həm də başqalarının fikirlərinə hörmət etmək vəzifələri də vardır. Onlar sadəcə təkliflər edə bilərlər, məsələn DVT üzrə araşdırma və ya nəzəri ədəbiyyat əsasında, ancaq onlar başqa fikirləri (perspektivləri) qəbul edə bilməlidirlər.

**e) Praktik icmaların inkişaf etdirilməsi**

DVT müəllimlərinin tədrisi sadəcə insanlara daha effektiv olmağa və ya şəxsi məqsədlərə nail kömək etmək barədə deyil, o, həm də praktik icmanın inkişaf etdirilməsi barədədir.[17]
DVT təlimçisinin rollarından biri də müəllimlərə başqa müəllimlər, iştirakçılar və maraqlı tərəflər ilə birlikdə planlaşdırmağa və işləməyə imkan verən vərdişlərin əldə edilməsinə kömək etməkdir. Kollaborativ iş və biliklərin bölüşdürülməsi demokratik cəmiyyətdəki həyatın və DVT-də peşəkar təcrübənin əsas ölçüləridir.

[17] Praktik icma bir inancı bölüşən və təhsillə bağlı eyni düşüncələri və praktikaları təşviq edən insanlar qrupudur.

Bunun ən vacib aspektlərindən biri də DVT müəllimlərinə özlərinin dəstək qruplarını yaratmağa, onu işlətməyə və qoruyub saxlamağa kömək etməkdir. Bu, kollaborativ qrup işinin dinamikasını və ümumi müqəddəratın və niyyətlərin praktik icmanın üzvləri arasında yaradılması yollarını dərk etməkdir. Müəllim tədris sistemi daxilində praktik icmaların və dəstək qruplarının inkişaf etdirilməsi praktikantların özlərinə daha çox öhdəliyin ayrılması və demokratik vətəndaşlığın öyrənilməsi üçün daha sərbəst və demokratik strategiyaların müəyyən edilməsinin mühüm bir yoludur.